**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**Azərbaycan ədəbiyyatı kafedrası**

---

*Əlyazması hüququnda*

**SİTARƏ ZAMAN qızı XƏLİLOVA**

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ DRAMATİK NÖVÜN TƏDRİSİ METODİKASI

**İxtisas: HSM–060201–Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim olunmuş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər:** **Mehriban Oqtay qızı Mövlamova**

**Azərbaycan ədəbiyyatı kafedrasının baş müəllimi,**

**filologiya üzrə fəlsəfə doktoru**

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ**..........................................................................................................3
**I FƏSİL. Dramaturgiyanın elmi-nəzəri əsasları**.........................................7
**1.1.** Şifahi xalq ədəbiyyatı dramaturgiyanın əsası kimi.............................7
**1.2.** Ənənəvi və interaktiv təlimdə dram əsərlərinin tədrisi metodikası: müqayisələr, paralellər..........................................................................21
**II FƏSİL. Dram əsərlərinin tədrisində fəal/interaktiv təlim metodları**..38
**2.1.** VIII-X siniflərdə dram əsərlərinin tədrisi metodikası.............................38
**2.2.** XI sinifdə dram əsərlərinin tədrisi metodikası......................................54
**NƏTİCƏ**.......................................................................................................68
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ......................................................71

# GİRİŞ

Misilsiz söz inciləri ilə zəngin olan ədəbiyyat həyatı obrazlı şəkildə əks etdirən söz xəzinəsidir. Ədəbiyyat həyatı özünəməxsus şəkildə, bənzərsiz söz üsulları, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək əks etdirir. Milli-mənəvi dəyərlərimizin qorunmasında, ədəbi-estetik düşüncələrimizin formalaşmasında ən təbii vasitə sözdür. Bilirik ki, ədəbiyyat şifahi və yazılı olmaqla iki qola ayrılır. Həm folklor ədəbiyyatı, həm də yazılı ədəbiyyat həyatı əksetdirmə baxımından üç növə bölünür ki, bunlara epik, lirik və dramatik növlər daxildir. Orta ümumtəhsil məktəblərində şagirdlərin keçmişdən gələn ədəbi dəyərlərlə maarifləndirilməsində hər üç növ xüsusi əhəmiyyət kəsb edir. Ədəbiyyatda özünəməxsus yeri olan, zəngin ədəbi dəyərləri özündə təcəssüm etdirən ədəbi növlərdən biri dramatik növdür. Dramatik növün ilk qığılcımlarının yaranması öz başlanğıcını Qədim Yunan ədəbiyyatından götürmüşdür. Qədim Yunanıstanda, Afinada təşkil olunan meydan tamaşaları dramatik növün sonrakı inkişafına təkan verdi. Daha sonra yaranan dram əsərlərində Şərq-Qərb ədəbi koloritinin həmahəngliyini müşahidə edirik.

**Mövzunun aktuallığı.** Ədəbiyyat bizim daxili aləmimizi saflaşdıran söz inciləri xəzinəsidir. Biz ədəbi əsərləri maraq üçün, mütaliə bacarığımızın formalaşması üçün oxumaqla yanaşı, həmin əsərlərdən bizə həyat boyu lazım olacaq pay götürürük. Ədəbi əsərlər bizə milli-mənəvi, estetik dəyərlər aşılayır, ruhumuzu saflaşdırır. Xalqımızın milli-mənəvi duyğularını özündə əks etdirən ədəbiyyat gənc nəslin tərbiyəsində xüsusi rol oynayır. Dramatik növün müxtəlif janrlarında qələmə alınmış əsərlər orta ümumtəhsil məktəblərində şagirdlərin yaş və psixoloji səviyyələri nəzərə alınaraq tədris olunur. Tədqiqat işimizdə yer alan hər bir dram əsərinin özünəməxsus mövzusu, ideyası və məzmunu vardır. Hüseyn Cavidin "Ana" dramı bizə ananın timsalında pisliyə yaxşılıqla cavab verməyi öyrədir. Əsərdə cərəyan edən hadisələr şagirdlərə humanist hisslər aşılamaqla yanaşı, ictimai ədalətin bərqərar olunmasının, haqq-ədalətin yerini tapmasının vacibliyini də göstərir. M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyası yumoristik tərəfləri ilə yanaşı, insanları bəlaya düçar edən cəhalətin,

cəhaləti təbliğ edənlərin, fırıldaqçı din xadimlərinin əsl üzünü oxuculara tanıdır. Şagirdlər savadsızlığın, ictimai geriliyin nə qədər ağır bəlalara gətirib çıxardığını biləndən sonra elmə, təhsilə hər zaman ehtiyac duyulduğunu anlayırlar. Şagirdlər dram əsərlərinin tədrisindən əlavə, həmin əsərlərin müəlliflərinin yaradıcılığı ilə də yaxından tanış olurlar.

Məlumdur ki, dünya təhsil sisteminə inteqrasiya etməklə təhsil məkanında yeniliklər və dəyişikliklər aparılmışdır. Təhsil sahəsində müxtəlif islahatların həyata keçirilməsi bir sıra problemlərin həlli yollarının yaranmasına səbəb oldu. Fəal/interaktiv təlim, yeni təlim texnologiyaları, informasiya-kommunikasiya imkanlarından istifadə, dərs sisteminin yeni təlim üsulları ilə qurulması ədəbiyyat fənninin tədrisində də öz  yenilikçi təsirini göstərdi. Buna görə də dramatik növdə olan nümunələrin yeni üsullarla, İKT-dən istifadə ilə tətbiqi dərs prosesində gənc və həvəskar ədəbiyyat müəllimlərinin diqqət yetirməli olduğu aktual məsələlərdəndir.

Dram nümunələri tədris olunarkən şagirdlər Şərqin böyük sənətkarlarının, dramaturqlarının yaratdıqları mükəmməl dram, faciə komediya, tragikomediya nümunələri ilə tanış olur və məzmununu başa düşürlər. Orta ümumtəhsil məktəblərində tədris olunan dramatik əsərlər məktəblilərə əxlaqi-etik normalarla yanaşı, bəşəri dəyərlər aşılayır. Müəllimlər dərs zamanı daha canlı, şagirdlərin maraq və diqqətini cəlb edən dərs üçün interaktiv təlim metodlarından faydalanırlar. Tədqiqat işinin aktuallığı həm də onu göstərir ki, müəllim sinifdə müstəqil iş aparmağa imkan verərək şagirdlərin araşdırma bacarıqlarının inkişafına şərait yaradır. Müəllim bu məqsədə nail olmaq üçün təhsil sahəsində əldə olunan qabaqcıl təcrübələrdən bəhrələnməli və bunu öz dərslərinə tətbiq etməyə çalışmalıdır. Bütün bu qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, dramatik nümunələrin tədrisinə yeni təhsil prizmasından yanaşmaq, yeni təlim üsullarını tətbiq etmək, faciə, komediya və dramın nəzəri məsələlərini müəyyənləşdirmək, eyni zamanda mövzunun tədrisində bu bilik və bacarıqlardan istifadə edərək tam fərqli bir dərs mühitinin yaradılması baxımından tədqiqat aktual hesab oluna bilər.

**Tədqiqat işinin obyekti.** Tədqiqat işinin əsas obyekti orta ümumtəhsil məktəblərində dram əsərlərinin öyrədilməsi və tədrisi prosesidir.

**Tədqiqat işinin predmeti**. Tədqiqat işinin əsas predmetinə orta ümumtəhsil məktəblərində dram əsərlərinin müasir təlim mühitində daha səmərəli metodların, yeni təlim üsullarının, yeni iş üsullarının, həmçinin təlim prosesində müəllim və şagirdlərin birgə fəaliyyəti nəticəsində deduktiv və induktiv dərs modellərinin təşkili prosesinin əksolunması daxildir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi orta məktəblərdə tədris olunan dram əsərlərini yeni-innovativ təlim modellərinə uyğunlaşdıraraq yeni iş üsulu və fərqli iş formalarından istifadə etməklə qloballaşan dünyada qəbul olunmuş təhsil standartlarına uyğun tədrisini həyata keçirməkdir.

Bu məqsədlə qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Dram əsərlərinin müxtəlif təlim metodları ilə tədris modellərinin verilməsi;
- M.F.Axundzadə, H.Cavid , N.Vəzirov, S.Vurğun və Cəfər Cabbarlının dramatik növdə qələmə aldıqları əsərlərin tədrisə cəlb olunması;
- Dövrün, sənətkarın, mövzunun əsas xüsusiyyətlərini aydınlaşdırmaq;
- Eyni zamanda dərslərin tərtibi zamanı psixoloji dəstək mühitinin yaradılması üsullarının işlənməsi;

**Tədqiqatın mənbələri.** Dissertasiya işinin yazılması zamanı ədəbiyyatın tədrisi metodikasına aid olan köhnə və yeni mənbələrdən, bu sahədə elmi məqalə və dissertasiya işlərindən, internet və vikipediya resurslarından, müəllim üçün metodik vəsaitlərdən istifadə olunmuşdur. Eyni zamanda dram janrının nəzəri aspektlərini özündə ehtiva edən elmi ədəbiyyatlar da tədqiqatın mənbələri sırasındadır.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertantın tədqiqat işinin əsas məzmununu ifadə edən məqalələr müxtəlif elmi jurnallarda nəşr olunmuşdur. Mövzu ilə bağlı magisrtantın 1 məqaləsi çap olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Orta ümumtəhsil məktəblərində ənənəvi tədris üsullarından uzaqlaşaraq yeni təlim texnologiyaları (TTMY, Blum taksonomiyası)

əsasında hazırlanmış orijinal dərs modellərinin işlənməsi əsas elmi yenilik hesab edilməlidir.

**Mövzunun praktik əhəmiyyəti.** Tədqiqat zamanı əldə olunan dram əsəri nümunələrinin tədrisi ilə bağlı nəticələr orta ümumtəhsil məktəblərində tədris aparacaq ədəbiyyat müəllimləri üçün əhəmiyyətli mənbədir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, hər biri ayrılıqda 2 yarımfəsildən ibarət olmaqla 2 fəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# DRAMATURGİYANIN ELMİ-NƏZƏRİ ƏSASLARI

## 1.1. Şifahi xalq ədəbiyyatı dramaturgiyanın əsası kimi

Şifahi xalq ədəbiyyatı xalqımızın zəngin söz inciləri xəzinəsidir. Xalq yaradıcılığının məhsulu olan folklor nümunələri qədim dövrlərdə yaranmış, ağızdan-ağıza keçərək yaşamış və zənginləşmişdir. Bu sənət nümunələri dil-üslub xüsusiyyətləri, janr əlvanlığı, xəlqiliyi ilə seçilir. Şifahi xalq yaradıcılığı milli mədəniyyətimizdən, tariximizdən xəbər verməklə yanaşı xalqın ruhunu özündə təcəssüm etdirir. Ona folklor ədəbiyyatı da deyilir. Bu termində folk-xalq, lore isə bilik mənasını verir. Şifahi xalq ədəbiyyatında xalqımızın humanizmini, vətənpərvərliyini, arzu və istəklərini, müxtəlif tarixi zamanlarda qarşılaşdığı ictimai-siyasi hadisələri əks etdirən nümunələr mövcuddur. Folklor estetik hisslərin, bədii təfəkkürün, mənəvi aləmi dərk etmənin başlanğıcıdır. Şifahi xalq ədəbiyyatı nümunələri xalqın, cəmiyyətin təxəyyülünün, bədii və estetik düşüncələrinin məhsuludur. O, xalqın milli keçmişinin, tarixi köklərinin, mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. İlkin folklor nümunələri şumer-akkad, qədim yunan və Roma ədəbiyyatlarından qaynaqlanır. Bu folklor motivləri klassik dram əsərlərində bir ənənəyə çevrilmişdir. Şərq-Qərb mədəniyyətlərinin bir-birinə təsiri zamanı bu motivlər daha da zənginləşmişdir. Şərq motivləri üzərində qurulan folklor nümunələrində ahəngdarlıq, təbiilik özünü göstərir. Bu nümunələrdə saf məhəbbət, vətən və qürbət, xeyirxahlıq, dostluq, sədaqət, xeyir və şər, əməyə, zəhmətə bağlılıq kimi motivlər öz əksini tapmış və əcdadlarımızın dilindən süzülərək yaddaşlarımıza hopmuşdur.

Folklorda lirik və epik növə aid nümunələr qədər dramatik növdə olan nümunələr də xüsusi rol oynamışdır. Yunan dilindən götürülmüş dram sözü "hərəkət" mənasını ifadə edir. Şifahi xalq ədəbiyyatında dram janrının ilk qıvılcımları Homo Ludens anlayışı ilə ortaya çıxmışdır. Bu məsələni daha ətraflı nəzərdən keçirək. Tarixi mənbələrdən bildiyimiz kimi bəşər cəmiyyətində Homo Sapiens adlanan ağıllı insan

modeli mövcud olmuşdur, sonralar inkişaf edərək Homo Faberə çevrilmiş və cəmiyyətə töhfə vermişdir. Bu iki oxşar insan modelinin əksinə olaraq XX əsrin ortalarında "oynayan insan" mənasını verən Homo Ludens anlayışı yaranmışdır. Bu termini elm aləminə Johan Huizinga gətirmişdir. Onun "Homo Ludens" adlı əsəri insanların oyunun nəzəri cəhətləri ilə tanış olmalarına şərait yaratmışdır. "Huizingaya görə, "oyun mədəniyyətdən öncədir, fərqli mədəniyyətlərdən çıxma ya da bir təsadüfün nəticəsi deyil, əksinə, müxtəlif mədəni aktların ortaya çıxmasında əsas amildir". Huizinganın bu kəşfi ilə mədəniyyət tarixinin axarı dəyişmişdir. Oyunu anlamsız, yaxud da əyləncə kimi görmək düşüncəsi yerini "mədəniyyət elə oyunla başlayır" fikrinə tərk etmişdir" [7, s. 11]. Yəni insanlarda maraq doğuracaq, onların zövqünü oxşayacaq, həm sevindirib, həm kədərləndirib, eyni zamanda üzlərində gülüş yaradacaq oyunlar, tamaşalar təşkil etmək mədəniyyəti formalaşdıran amildir. Huizinga oyunun mədəniyyətin təməli olduğu, hətta mədəniyyətdən əvvəl gəldiyi qənaətində idi. Onun oyunun xarakteri ilə bağlı dediklərindən aşağıdakı nəticələri çıxara bilərik:

- Oyun insanın əhvalını açar
- O, sərbəst şəkildə əylənə biləcəyimiz məşğuliyyətdir
- Müəyyən zaman və məkan çərçivəsində oynanılır
- Oyun tək bir nəfərdən deyil, əksəriyyətdən təşkil oluna bilər

Dram janrının folklorda olan növlərinə oyunlar, meydan tamaşaları və şəbihlər daxildir. Bu növlərdən ən qədimi olan oyunlar estetik zövqü oxşamaqla bərabər, hərəki bacarıqları da inkişaf etdirir. Tarixən oyuna bu və ya digər anlamlar yüklənmişdir. "S.V.Örnək oyunu "insanın ruhsal durumunu bir sıra fiziki hərəkətlərlə ifadə etməsi, açığa vurması" adlandırır." [27, s. 14]. Oyun musiqi ilə, hərəkətlə nümayiş olunduqda daha çox maraq cəlb edir. Bu da insanların asudə zamanlarını səmərəli və əyləncəli keçirmələrinə kömək edir. S.V.Örnəkin oyuna verdiyi tərif belədir: "Oyun sövqi-təbii olaraq insanda var olan, təməli din və sehrə bağlı törə və mərasimlərə əsaslanan, toplumların kültürəl strukturuna görə şəkillənən və toplumdan topluma fərqlilik göstərən, yer və zaman baxımından günlük yaşamdan fərqli, istəyə

bağlı könüllü hərəkətlərdir” [27, s. 16]. Homo Ludens anlayışı vasitəsilə ortaya çıxan oyun tədricən təkmilləşərək dövrümüzədək gəlib çatmışdır.

Azərbaycan xalqının özünəməxsus folklor janrlarından biri də xalq oyunlarıdır. Bu oyunların necə yaranması, yayılması, mövzu-məzmun cəhətdən nələri özündə əks etdirməsi barədə məlumatlar müxtəlif mənbələrdən, ölkəmizə səfər edən bir çox Asiya, Avropa səyahətçilərinin öz təəssüratlarını bölüşdükləri əsərlərindən, xatirələrindən öyrənilib. Eyni zamanda bizim dahi sənətkarlarımızın əsərlərində, Nizami Gəncəvinin Xəmsəsində (“Çövkən” oyunu) bu oyunların adı çəkilmiş və kişilərlə qadınların birlikdə oyuna qoşulmaları haqqında məlumat verilmişdir.

Müasir dövrdə oyun dedikdə, şahmat, nərd, domino, kart, insanları əyləndirmək üçün göstəri xarakteri daşıyan kəndirbazlıq oyunları, məktəbdə şagirdlərin topdan istifadə edərək oynadıqları oyunlar başa düşülür. Mətin And oyunları üç növdə qruplaşdırır:

1. Xalq rəqsləri (kənd oyunları)
2. Dramatik oyunlar
3. Digər oyunlar (uşaq, idman və s. oyunlar)

Bunların içərisində dramatik oyunlar xüsusi maraq cəlb edir. Bu cür oyunlar səhnədə nümayiş etdirmək üçün hazırlanır. Hər bir oyunçunun özünəməxsus geyimi, qrimi olur. Dramatik oyunlarda monoloq və dialoqlardan istifadə olunması onu digər oyunlardan fərqləndirir.

Azad Nəbiyev oyunları ümumi olaraq aşağıdakı beş qrupa bölmüşdür:

1. Məişət oyunları
2. Mərasim oyunları
3. Uşaq oyunları
4. İctimai məzmunlu oyunlar
5. Rəqsdaxili oyunlar

Müəllif kitabında bu təsnifata daxil olan oyunların geniş şəkildə izahını vermişdir. “Oyun” sözü oynamaq sözünün kökü ilə əlaqəli olmuşdur. Bu sözün daxilindəki “oy” ifadəsi ağıl mənasını ifadə edir. Yəni insanlar öz fikirlərini, söyləmək istədiklərini hərəkət vasitəsilə başqalarına çatdırırlar. Bunun nəticəsində rəqsdaxili oyunlar yaranmışdır. Bu oyunlar sonralar rəqslərin daxilində yaşamış və inkişaf etmişdir. Həmçinin belə oyunlarda him-cim hərəkətlərindən də istifadə olunmuşdur. Daha sonra oyunların rəqslərdən ayrılması nəticəsində sözsüz oyunlar yaranmışdır. Rəqslərlə bağlı oyunlara “Küləyi çağırmaq”, “Yağış yağdırmaq”, “Odu közərtmək” kimi oyun növləri daxildir. Bu oyunların adlarındakı deyimlərə insanların günəşi səsləməklə bağlı “Gün çıx, gün çıx, kəhər atı min çıx” və ya yeli çağırmaqla bağlı ifadələrində rast gəlirik. A.Nəbiyevin təsnifatına daxil olan digər bir oyun növünə mərasim oyunları daxildir. Bu cür oyunlar müəyyən mövsüm mərasimləri ilə bağlı olmuşdur. Mərasim oyunlarında əməyə çağırış, bolluq-bərəkət arzulamağın geniş ifadəsi öz əksini tapmışdır. Hamımızın yaxşı bildiyi, dillər əzbəri olan “Kosa-kosa”, “Qodu-qodu”, “Fincan-fincan”, “Nunnu” bu növ oyunlara daxildir.

Xalq oyunlarının digər növünü xalqın sadə həyatını özündə əks etdirən məişət oyunları təşkil edir. “Bənövşə-bənövşə”, “Usta-şəyird”, “Habudu getdi, Şahbudu gəldi”, “Yoldaş səni kim apardı” kimi oyunlar məişət oyunları silsiləsindəndir. “Bənövşə-bənövşə” oyununda iki dəstə bölünür, dəstənin üzvləri bir-birinin əlindən tutaraq cərgə yaradırlar. Onlar bir-birinə müraciət edərək deyir:

-Bənövşə!…

-Bəndə düşə.

-Bizdən sizə kim düşə?

-Adı gözəl, özü gözəl Lalə düşə.

Bu zaman Lalə dəstədən uzaqlaşaraq biraz arxaya gedir və qarşısındakı dəstəni bölmək üçün sürətlə qaçıb onların əlləri üstünə atılır. Əgər əllər zərbənin təsiri ilə açılarsa, həmin adam yerə yıxılır.

İctimai məzmunlu oyunlar isə ictimai ədalətsizlikləri, yuxarı və aşağı təbəqələr arasındakı münasibətləri özündə əks etdirir. Bunlara “Xan-vəzir”, “Xan-xan” oyunları daxildir.

Azad Nəbiyev oyunların təsnifatına dair digər bölgüsündə yuxarıdakıları daha da aydınlaşdıraraq belə vermişdir:

1. Meydan oyunları
2. Cıdır oyunları
3. Atüstü oyunlar
4. Sim oyunları
5. Yekbə oyunlar
6. Otüstü oyunlar
7. Kəndirbaz oyunları
8. Zorxana oyunları
9. Gözbağlıca oyunları
10. Şahmat, nərd, dama oyunları (masaüstü oyunlar)
11. Milli güləş

Oyunlar haqqında verilən təsnifatları ümumiləşdirsək onları təhkiyəli, yəni danışıqdan, dialoq, monoloqlardan ibarət və təhkiyəsiz olaraq iki qismə bölmək olar. Təhkiyəli oyunlara “Kosa-kosa”, “Qodu-qodu”, “Yel baba”, “Xıdır Nəbi”, “Tənbəl qardaş” oyunları, müxtəlif qaravəllilər, meydan oyunları, kukla oyunları daxildir. Təhkiyə əsasında qurulmayan oyunlara “Əl üstə kimin əli”, “Bənövşə”, “Ənzəli”, “Gizlənpaç”, “Dəsmal aldı qaç”, “Xan-vəzir”, “Fincan-fincan”, uşaq oyunları, kəndirbaz oyunları aiddir. Bəzi oyunlar var ki, cəza üstündə qurulmuşdur. Həmin oyunlarda ya uduzan şəxs, ya da mənfi xarakterə malik olan birisi cəzalandırılır. Hamımızın çox yaxşı bələd olduğu “Şah, vəzir” oyunu bu cür oyunlardandır. Bu oyunda şah, vəzir, vəkil, oğru, cəllad iştirak edir. Onların adı kağızlarda qeyd olunur. Oğru tapılır və şah tərəfindən cəzalandırılır. Bu oyun “Xan oyunu” da adlanır. “Əl üstə kimin əli”, “Dız-dız”, “Dəsmalatdı” kimi oyunlar da cəza üzərində qurulmuşdur. Oyunlar kollektiv şəkildə həyata keçirilir, onlar oturaq və hərəkətli olmaqla iki yerə

bölünür. Oturaq oyunlara "Uçdu-uçdu", "Əl üstə kimin əli", "Lal-dinməz" kimi oyunları misal göstərə bilərik. Hərəkətli oyunlar isə fiziki hərəkət tələb edir və bu cür oyunlarda müəyyən vasitələrdən, əşyalardan istifadə edilir. "Dəyirman", "Dəsmalı ver", "Xəndəyədüşmə" kimi oyunlar bu qəbildəndir.

Oyunların digər bir hissəsini uşaq oyunları təşkil edir. Qeyd edə bilərik ki, uşaqlar balaca yaşlarından oyunlarla böyüyür. Bu zaman onlar həm əyləncəli vaxt keçirirlər, həm də yeni insanlarla tanış olurlar, əhatələri genişlənir və sosiallaşırlar. Uşaq oyunları barədə ilkin məlumatları Mahmud Kaşğarinin divanından öyrənirik. M.Kaşğari divanında "Müngüz-müngüz" oyununun adını çəkir. Buradakı müngüz buynuz mənasını ifadə edir. Uşaqlar çayın kənarında oturub bir-bir buynuzlu heyvanların adını çəkirlər. Kimsə buynuzsuz heyvanın adını çəkərsə, həmin uşaq çaya atılır. Demək olar ki, əksər uşaqların oynadığı "Siçan-pişik", "Evcik-evcik", "Qaçdı-tutdu", "Top aldı qaç", "Heykəl", "Bənövşə", "Stop", "Quş uçdu" uşaqlığımızı maraqla keçirdiyimiz oyunlar silsiləsindəndir. Uşaq oyunlarının bir hissəsini onların zehni qabiliyyətlərini inkişaf etdirən oyunlar təşkil edir ki, bunlara "Tap görək", "Gizlənqaç", "Dəsmal aldı qaç", "Əldə əşya gizlətmə" kimi oyunlar daxildir. Bunlar dövrümüzə qədər gəlib çatmış və uşaqların, balacaların maraq dairəsinə daxil olmuşdur.

Məlumdur ki, türklər doğuşdan savaş ruhlu, at belində çapan, qılınc oynadan, öz torpaqlarını qorumaq üçün məharət göstərən məğrur igidlərdir. Bu xüsusiyyətlər savaş və güləş oyunlarının meydana gəlməsinə səbəb olmuşdur. Savaş oyunlarında həm də türk igidlərinin gücü, qüvvəti, dözümlülüyü, çevik hərəkət etmə qabiliyyəti yoxlanılırdı. Türk igidləri istər atlarla, qılıncla, istərsə də, qol gücü ilə döyüş meydanlarına atılırdılar. Bütün türk xalqlarında, eləcə də Azərbaycanda "Çovqan", "At üstündə güləş", "Sürpapaq" kimi atlı oyunlar, "Cıdır" kimi atsız oynanılan oyunlar geniş yayılmışdır. Tarixi qədimlərə söykənən "Çovqan", "Cirit" oyunları da təhkiyə əsasında qurulmamışdır. Çovqan, başqa cür çövkən adlanan bu oyun atla oynanılan maraqlı oyunlardan biri olmuşdur. Bu oyun Orta Asiyada, Anadoluda böyük rəğbət qazanmışdır. Oyunun adı onu oynayan zaman istifadə edilən alətin adı

ilə bağlıdır. Belə ki, bu alət ağacdan hazırlandığı üçün “ağaccıq” adlanırdı. Həmin alət vasitəsilə atın üstündə rəqib qapıya top vurardılar. “Cirit” də özünəməxsus qaydaları olan, at üstündə oynanılan oyun növlərindən biri olmuşdur. Atla oynanılan oyunlardan ən məşhuru “Cıdır” oyunudur. Bu oyun cənnətməkan diyarımız olan Qarabağda maraqla oynanılan oyunlar sırasına daxil idi. Qarabağın məşhur Cıdır yarışları Şuşanın Cıdır düzündə yaz və payız aylarında keçirilirdi. Bu yarışlarda finala ilk çatan atlı qalib hesab olunurdu və bunun müqabilində çoxlu hədiyyələr qazanırdı.

Atlı oyunlar digər türk xalqlarında hal-hazırda da keçirilir. “Qaynaqlardan aydın olur ki, uzun məsafəyə yarışlar (“Bayqa”) at üstündə güləş (“Sais”, “Oodarış”), yerə basdırılan keçi cəmdəyini əldə etmək uğrunda mübarizə (“Gökbörü”, “Koqkari”, “Ulak”), topla oyun (“Çovqan”, “Quy bozi”) və s. oyunlar təkmilləşmiş formada müasir dövrdə də davam etməkdədir. Ancaq ən çox davam edən oyunların içində “Kızkuu”, “Çovqan”, “Sürpapaq”, “İsindi”, “Papaq oyunu”, güc sınama oyunlarından “Gökbörü”, “Oodariş”, at yarışlarından “Bayqa” və başqa oyunlar vardır.” [27, s. 147].

Dini oyun xarakteri daşıyan şaman oyunları ritual ayinlərin ibadətə çevrilməsi, sistemləşdirilməsi nəticəsində yaranmışdır. Şamanizm isə şamanların inanclarını göstərmə üsuludur. Şaman oyunları Orta Asiyada, Amerikada, Avropada geniş yayılmışdır. İnsanlar şaman oyunları vasitəsilə inanclarını rəmzi şəkildə əks etdirməyə çalışmışlar. Digər izləyicilərin də iştirak etdiyi bu oyunda müxtəlif şeirlər, alqışlar səsləndirilir, dini rituallar yerinə yetirilirdi. Oyunun özünəməxsus cəhəti bəzi heyvanların və təbiət hadisələrinin təqlid edilməsidir. Bu təqlidlərə qazların qaqqıldamasını, atların kişnəməsini, ildırımın çaxmasını misal göstərə bilərik. Sanki, şaman dünya ətrafında fırlanır və quşların, heyvanların təqlidinə başlayır. Bu yamsılamaların öz mənaları var. Məsələn, quşun uçmasını yamsılayan şaman dünyanın fırlandığını çatdırmaq istəyir. O, istər rəqsi ilə, istər insanlara çatdırdığı məlumatlarla dini ritualı yerinə yetirmiş olur. Oyun şamanın öz fikirlərini, lazımlı məlumatlarını insanlara çatdırmasında vasitə rolunu oynayır. Burada diqqət çəkən

məqamlardan biri şamanın rəqsidir. Bu rəqs onun ruhlarla ünsiyyət yaratmasını, onlarla oynamasını əks etdirir. Bu bir növ səmavi rəqsləri icra edən səmazənlərin Yaradanla rabitə qurmasına bənzədilir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, şifahi ədəbiyyatda xalq yaradıcılığının məhsulu olan dram janrları- oyunlar, tamaşalar öz başlanğıcını şaman oyunlarından, təsəvvüf aləmindən götürmüşdür. Şaman sanki, öz oyununda başqa bir aləmi təcəssüm etdirir, insan cəmiyyəti ilə heyvanlar aləmini bərabərləşdirməyə çalışır.

Şifahi xalq ədəbiyyatının dramatik növünə aid olan janrların ikinci hissəsini xalq tamaşaları və ya meydan tamaşaları təşkil edir. Qədim Yunanıstanda ilk meydan tamaşaları yunan ilahələrinə, tanrılarına həsr olunurdu, onların həyatını əks etdirirdi. Yunanlar bunu teatr adlandırırdı və tamaşa mənasını ifadə edirdi. Qədim yunan ədəbiyyatında pradram adlanan ilkin dramlar tanrıların həyatından, onların doğulmasından, başlarına gələn əhvalatlardan bəhs edirdi. Sonralar onlar mahiyyət etibarilə mənalarını itirərək, xalqın həyatını əks etdirməyə başladı. Afina meydanlarında qədim yunan əfsanələrinin səhnələşdirilməsi nəticəsində tamaşalar təşkil olunurdu. Bu səhnələşdirilən əfsanələrə “Promotey”, “Herakl” kimi əfsanələr daxildir. Bu tamaşalar həm məzhəkəli, komik, həm də gərgin, qəmgin səhnəciklərdən təşkil olunurdu. Beləliklə, antik Yunanıstanda teatrın əsası qoyuldu. Tamaşalar musiqinin, rəqsin, oyunun, təhkiyənin vəhdətindən yaranmışdır. Əvvəllər tamaşalar kənd və ya şəhər meydanlarında, küçələrdə, məhəllələrdə, geniş açıq sahələrdə göstərilirdi. Nümayiş olunduğu yerə uyğun olaraq adı “meydan tamaşası” qalmışdır. Bu tamaşaların keçirilməsində məqsəd insanların asudə vaxtlarını əyləncəli keçirməsi, eyni zamanda oyunçuların tamaşalarını, göstərilərini xalqa təqdim etmək niyyəti idi. Xalq tamaşaları və oyunları şifahi xalq ədəbiyyatından qaynaqlanır. Xalq tamaşaları qədim zamanlardan bəri insanların marağına səbəb olan janrlardan biri olmuşdur. Çünki tamaşalar geniş kütlə qarşısında göstərilirdi, kənd meydanlarına, küçələrə toplaşıb tamaşanı izləyən insanlar bundan zövq alırdılar. Meydan və ya xalq tamaşaları uzun bir inkişaf yolu keçmişdir. Əvvəllər körpə uşaqlarına nağıl söyləyən analar, nənələr orada baş verən hadisələrdən danışarkən uşağa maraqlı olsun deyə

müxtəlif jest və mimikalardan istifadə edirdilər. Beləliklə, tamaşa və göstərilərin ilk qığılcımları yaranmağa başladı. Məsələn, "Qırmızıpapağın nağılını danışan zaman onlar qurdu təsvir etmək üçün səslərini kobudlaşdırırdılar. Göründüyü kimi, epik növün müxtəlif janrlarından dram janrlarının ilk rüşeymlərinin yarandığının şahidi oluruq. Əslində folklor nümunələri bir-birilə əlaqəli şəkildə yaranmışdır. Cəmiyyətdə baş verən naqis,çirkin əməllər, haqsızlıqlar tamaşalarda yumor və satiradan istifadə etməklə ifşa edilir və islah olunmağa çalışılırdı.

Azərbaycan xalq tamaşalarına "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Tənbəl qardaş", "Kosa-kosa", "Cıdır" və başqa tamaşalar daxildir. Bunlar xalq arasında tanınan, bilinən və maraqla izlənilən tamaşalardır. "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" və "Tənbəl qardaş" kimi üçhissəli xalq tamaşalarında əməyə, zəhmətə sevgi motivləri aşılanır. "Kosa-kosa" Novruz bayramı ərəfəsində yazın gəlişi ilə əlaqədar olaraq göstərilir. Buradakı Kosa obrazı maraq doğurur. Kosa istər məzəli rəqsləriylə, istərsə də xarici görkəmiylə insanlarda gülüş yaradır. Üzü rəngli boyalarla bəzədilir, başına uzun şiş formalı papaq qoyulur, üzərinə tərsinə çevrilmiş formada kürk geyindirilir. Uşaqlar Kosanı dövrəyə alıb aşağıdakı sözləri oxuyur, Kosa isə oynayardı:

A kosa-kosa gəlsənə,

Gəlib salam versənə,

Torbanı doldursana,

Kosanı yola salsana.

Ay uyruğu, uyruğu,

Saqqalı it quyruğu,

Kosam bir oyun eylər,

Quzunu qoyun eylər,

Yığar bayram xonçasın,

Keçəlin toyun eylər.

Bu nəğmə oxunulduqdan sonra "Kosa öldü" söylənilir və Kosa yerə yıxılır. Ona aşağıdakı suallar verilir, o da cavablayır.

-Kosa, hardan gəlmisən?

-Qubadan.

-Nə gətirmisən?

-Alma.

-Almanı neylədin?

-Satdım.

-Pulunu neylədin?

-Öküz aldım.

-Bəs öküzü neylədin?

-Döydüm öldü.

Bundan sonra Kosaya xitabən deyilir:

Başın sağ olsun, kosa,

Canın sağ olsun, kosa.

Arşın uzun, bez qısa,

Kəfənsiz öldün, kosa.

Sonra iki dəstəyə ayrılıb bəzi mahnılar oxuyurlar. Bu mahnılar oxunduqdan sonra Kosa papağını götürüb ey yiyəsindən və ya başqa insanlardan pay yığır və "Bahar gəldi, bahar gəldi, xoş gəldi" deyərək həyətdən çıxır. Bu tamaşa keçmiş zamanlarda

kimisə lağa qoymaq, ələ salmaq məqsədilə keçirilirdi. Dövrümüzdə isə mərasim tamaşası kimi qeyd olunur. Burada tənqid hədəfi qışı təmsil edən Kosa obrazıdır. Bayram tamaşalarında Kosa ilə bərabər Keçəl, keçi, Bahar qızı obrazları da iştirak edir. Onlar isə yazın, xoş ətirli baharın təmsilçiləri kimi çıxış edirlər.

Azərbaycanın gözəl guşələrindən olan Qarabağda oynanılan oyunların, göstərilən tamaşaların da tarixi qədimlərə dayanır. Xalqın məişətində baş verən elə hadisələr olmuşdur ki, onlar şifahi xalq nümunələrində öz əksini tapmışdır. Məlumdur ki, hər bir xalqın özünəməxsus folklor nümunələri mövcuddur. Azərbaycan folklorunun özünəməxsusluğu onun vətənpərvərlik, humanizm, qəhrəmanlıq, torpaqları düşmən tapdağından qorumaq kimi mənəvi keyfiyyətləri özündə əks etdirməsidir. Qarabağ ərazisində geniş yayılmış oyunlara "Kilimarası", "Maral", "Həccə getmə" kimi oyunlar daxildir. "Kilimarası" oyunu təhkiyə əsasında qurulan, tamaşa formasında təşkil olunan oyunlar sırasındandır. Bu oyun tərbiyəvi hissləri özündə əks etdirir. Oyun əyləncəli başlayır, sonluğu kədərli bitir. Buna görə uşaqlar bu tamaşanı seyr edə bilmirdilər. Sonralar oyunun məzmunu dəyişdirilmiş və uşaqların da baxa biləcəyi səviyyədə qurulmuşdur. Bu oyun Qarabağda qurulan toy mərasimləri ilə əlaqədar keçirilirdi.

Ümumtürk dünyasında böyük maraqla qarşılanan, "Kukla oyunu" adlanan tamaşa ən çox uşaqların marağına səbəb olur. Bu, kölgə oyunu da adlanır. Kukla oyununun mənşəyinin Çin, Hindistan mədəniyyətlərindən gəlməsi haqda fikirlər mövcuddur. Bu oyun Türkiyədə də geniş yayılmışdır. Qədr gecələri istisna olmaqla, Ramazan ayının qalan bütün günlərində bu oyun oynanılır. Oyun dörd hissədən ibarətdir: giriş, mübahisə, əsas hissə, nəticə hissəsi. Burada göstərilən insan, heyvan, əşya fiqurları heyvanların dərisindən kəsilib düzəldilmişdir və onların kölgələri işığın altında ağ pərdə arxasından görünür. Kuklaları əlində saxlayan insan səsini və danışıq tərzini dəyişərək onları müşayiət edir. Qaragöz və Hacivat tamaşanı maraqlı edən əsas obrazlardır.

Əslində oyun və tamaşaların mənbəyi insanın əylənmək, gözəl vaxt keçirmək istəyindən yaranmışdır. Zamanla bu istək məşğuliyyətə çevrilərək geniş xalq kütləsi

arasına çıxmışdır. Meydan tamaşaları, xalq oyunları müxtəlif ayinlərlə, dini-mistik ritualların yerinə yetirilməsi və mifoloji ünsürlərin təsiri ilə oynanılmağa başlamış, sonralar dram, komediya, faciə janrlarına çevrilərək özünün ən böyük zirvəsinə çatmışdır. İnsanlar öz inanc və davranışlarını rituallar vasitəsilə icra edirdilər. Oyunların, tamaşaların bünövrəsini məhz rituallar təşkil edir. Daha sonra insanlar bunu əyləncəli şəklə gətirərək günlərini maraqla, zövqlə keçirirdilər. Rituallardan söhbət açmışkən qeyd edə bilərik ki, bayram günlərində oynanılan oyunlar, göstərilən tamaşalar keçmişdən gələn müxtəlif ayinləri özündə əks etdirir. Bu, əsasən, bayram mərasimləri ilə bağlı olan oyunlarda özünü göstərir. Məsələn, Novruz bayramı ərəfəsində, çərşənbə bayramlarında odun üstündən atlamaq, qulaq falına çıxmaq, ilaxır çərşənbədə qızların bəxt arzusu ilə üzük falını sınaması, bütün bunlar İslamdan əvvəl, atəşpərəstliklə bağlı yaranmış, ritual xarakteri daşıyan ünsürlərdir.

Folklorşünaslığımızda bir çox tədqiqatçılar tərəfindən tədqiq olunan janrlardan biri də qaravəllidir. “Qaravəlli” ifadəsinin etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçıların fikrincə, qaravəlli toy mərasimlərində insanları əyləndirmək üçün oynanılan oyun növüdür və bu termin öz mənşəyini Qaraevli tayfasının adından götürmüşdür. Sonralar bu oyun kənd meydançalarında, küçələrdə tamaşaçıların maraqla izlədiyi, aşıqların söz qoşub saz çaldıqları tamaşa növünə çevrilmişdir. Lakin bu mülahizənin doğruluğu sübuta yetirilməmişdir. Çünki Azərbaycanda Qaraevli adlı tayfa olmamışdır. Bəziləri düşünür ki, bu söz orta əsrlərdə Qara Vəli adlanan hər hansı bir qüdrətli şəxsiyyətin, nüfuzlu birinin adı ilə əlaqədar ola bilər. “Qara” sözü böyük, qüdrətli mənalarını daşıyır. Təsadüfi deyil ki, tarixdə bir çox görkəmli şəxsiyyətlərimiz bu ləqəblə tanınmışlar. Eyni zamanda bir çox toponimlərimiz bu sözün iştirakı ilə yaranıb ki, həmin yer adları böyüklük, yüksəklik mənalarını özündə ehtiva edir. Məsələn, misilsiz sərvətlərlə zəngin Qarabağ, Qaradağ. “Kitabi-Dədə Qorqud” dastanından tanıdığımız bir çox obrazların adlarında, eləcə də Qaraca Çoban adında da qara sözü böyük, əzəmətli mənalarını verir. Dastandan verilən aşağıdakı nəzm nümunəsində də eyni mənanın nəzərdə tutulduğunu görə bilərik:

Qarşu yatan qara tağım yıqılubdır,

Ozan, sənin xəbərin yoq.

Digər tədqiqatçıların fikrincə, bu terminin etimologiyasının kökündə “pis əməlləri ifşa etmək, göstərmək, bəlli etmək mənasını verən “Qarabəlli” sözü dayanır. Bu mülahizəni doğru hesab etmək daha məqsədəuyğundur. “Qarabəlli” sözü eyniadlı tamaşaların yaranması nəticəsində meydana çıxmışdır. Sonradan orfoqrafik dəyişiklik nəticəsində “Qaravəlli” sözünə çevrilmişdir. Bu tamaşalarda insanların nadinc, riyakar, əxlaqa zidd davranışları üzə çıxarılır və tənqid olunurdu. Həmçinin qaravəllidə nağıl və lətifəyə xas xüsusiyyətlər özünü göstərir ki, bu da onu məişət mövzularını əks etdirən yumoristik bir janr səviyyəsinə çatdırır. Qaravəlli tamaşaları da şifahi xalq ədəbiyyatının epik növünün janrı olan qaravəllilər əsasında yaranmışdır. Bu tamaşalar xalq tamaşalarının növlərindən biridir. Burada ictimai ədalətsizliklər, naqis cəhətlər yumor, gülüş vasitəsilə tamaşaçıya çatdırılır və onlara şəffaf, aydınlıq yol göstərilir. Qaravəlli tamaşalarının əsasını məzhəkə təşkil edir, lakin bununla bərabər, kinayə, satira, rəqs etmək, mahnı oxumaq, şeir səsləndirmək, musiqi kimi ünsürlər də özünün göstərir. Bu tamaşalar ilə bağlı M.Arif kitabında bu cür yazır: “Toy məclislərində qəhrəmanların məğlubiyyəti ilə bitən böyük nağıl və dastanlardan sonra tamaşaçıların könlünü açmaq və “ tragediyanın” ağır təsirini yüngülləşdirmək üçün oradaca ya aşıqların köməklikləri və ya başqa bacarıqlı adamlar tərəfindən “Qaravəlli” adı ilə məşhur olan yüngül, məzhəkəli tamaşalar göstərilir”.[8, s. 9].

Qaravəlli tamaşalarında el aşıqları saz çalar, söz qoşar və nağıl söyləyərdilər. Sonra isə bu tamaşanın əsas qəhrəmanı olan Keçələ dair oyunlar oynanılar, tamaşalar göstərilərdi. Bunlara Keçəl, Kosa və Keçəl kimi tamaşalar daxildir. Keçəl ağıllı, sadə, fərasətli, hazırcavab, haqsızlığa qarşı mübarizə aparan bir obrazdır. Digər bir obraz Kosa obrazıdır ki, o, Keçəlin sahib olduğu xüsusiyyətlərə malik deyil.

Şifahi xalq ədəbiyyatında dini tamaşa məzmunu daşıyan, əsasən, məhərrəmlik ayı ilə bağlı olan və Kərbəla müsibətlərinin təsvirini özündə ehtiva edən dramatik növün

janrlarından biri şəbihlərdir. Bunlar süjetli oyunlar sırasına daxildir. Şəbih sözünün mənası canlandırma deməkdir, burada dini müqəddəslərin başına gələn müsibətlər canlandırılır. Həmin faciəvi hadisələri təsvir edən şəbihlərdə tamaşa iştirakçıları ağlayır, Kərbəla şəhidləri üçün sinə vururlar. Bu tamaşalarda məqsəd iştirakçılara kədərli hissi ötürməkdir. Tarixdə baş vermiş bu müsibətləri, İmam Hüseynin, Həzrəti Əbəlfəzin başına gələnləri gerçəyi kimi oynamaq asan olmasa da, səhnələr ona bənzər şəkildə təşkil edilir. Şəbih tamaşalarında şəbihgərdan, indiki deyimlə desək, rejissor adlanan bir nəfər olur ki, o, tamaşa iştirakçılarına, onların geyimlərinə, səhnədəki davranışlarına, obrazların dilindən verilən mətnlərə nəzarət edir. Bəzən ola bilər ki, tamaşanı seyr edən izləyicilər oyunçuların dediklərinə, oxuduqları mərsiyələrə qoşulub onlara dəstək olsunlar. Məsələn, tamaşada İmam Hüseynin şəhid olunması səhnəsindən sonra oxunan mərsiyələrə nəzər salaq:

Hüseyn gəldi Kərbəlaya qonaq

Gözlərindən iraq Ya Rəsulallah

Ölüb ətşan Fatimə balasi

Düşdü eldən uzaq Ya Rəsulallah

Və ya:

Ey türbəti xaki şəfa

Ay Kərbəla, ay Kərbəla

Şəhri vəfa, kuyi səfa

Ay Kərbəla, ay Kərbəla

Qeyd etmək lazımdır ki, səhnədə hadisələr canlandırıldığı zaman izləyicilər qəzəbli şəkildə reaksiya verə bilər. Ancaq unutmamalıdırlar ki, oynanılan səhnələr həmin hadisələr üzərində qurulmuş tamaşadır. Bəzən dini müqəddəslərin başına gətirilən hadisələri canlandıran zaman oyunçular da özlərini saxlaya bilmir və ağlamağa başlayırlar. Şəbih tamaşalarının məqsədi Kərbəlada baş verənlərdən,

insanlığa sığmayan həmin müsibətlərdən yaranan acını, kədəri izləyicilərə çatdırmaqdır. Bu tamaşalarda bəzi işarələrdən, rəmzlərdən istifadə olunur ki, bunlara əl, qara rəngli örtük, su və s. daxildir. Şəbih tamaşalarından biri "Qasımın toy gecəsi"dir. Bu şəbih İmam Hüseynin qardaşı oğlu Həzrəti Qasımın başına gətirilən müsibətləri özündə əks etdirir. Hadisələr bu şəkildə cərəyan edir: İmam Həsənin vəsiyyətinə əsasən İmam Hüseynin qızı Fatimənin əmisioğlu Həzrəti Qasımla toyu olur. Toydan sonra Qasım döyüşə gedib öldürülür. Onun toyu yasa çevrilir.

Digər şəbih tamaşaları da vardır ki, Haqverdiyev onların adlarını qeyd etmişdir. "Peyğəmbərin qətli", "Əlinin qətli", "Müslümün Kufədə qətli", "Müslümün oğlanlarının qətli", "Mədinədən səfər", "Fərat sahilində Hürr ilə görüş", "Hürrün peşmançılığı və ölümü", "Kərbəla davası", "Şamda Səkinənin ölümü", "Firəng səfirinin səhnəsi", "Əsirlərin xilas edilməsi", "Əsirlərin Kərbəlaya varid olması və qəbirləri ziyarət", "Mədinəyə varid" və. s. [27, s. 123].

Şəbih tamaşalarının rəmzlərindən biri də rənglərlə bağlıdır. Burada ağ, qara, yaşıl, qırmızı rənglər simvolik məna daşıyır. Ağ rəng Kərbəla şəhidlərinin ruhlarının paklığından, saflığından xəbər verir. Peyğəmbərin ümməti baş verən amansız hadisələrə görə yas tutub qara və yaşıl rəngdə geyinir, bunun əksinə olaraq, yezidlər qırmızı rəngə bürünürlər. Qırmızı rəng şadlıq və sevinci bildirir. Bütün bu simvolikasına, dini-mistik xüsusiyyətlərinə görə şəbihlər ritual xarakter daşıyır. Beləliklə qeyd edə bilərik ki, şifahi xalq yaradıcılığı dramaturgiyanın yaranmasının və inkişafının ilk rüşeymi olmuşdur.

## 1.2. Ənənəvi və interaktiv təlimdə dram əsərlərinin tədrisi metodikası: müqayisələr, paralellər

Ədəbiyyat dərslərində dram əsərlərinin tədrisinin əhəmiyyəti böyükdür. Dramatik əsərlərin mənimsədilməsində, tədris olunmasında yeni təlim texnologiyalarının tətbiq olunması həmin dərslərdə müxtəlif təlim metodlarının, rəngarəng iş üsullarının istifadəsinə şərait yaratdı, dərslərin yeni üsullarla tədrisi üçün geniş imkanlar açdı. Ədəbiyyat dərslərinin səmərəli şəkildə təşkil olunmasında bu təlim texnologiyalarının

rolu danılmazdır. Təhsil, təlim-tərbiyə proseslərini yaxşılaşdırmaq üçün innovativ dəyişikliklər aparılmışdır. Bu məqsədlə aparılan dəyişikliklərdən ən önəmlisi dərslərin fəal/interaktiv təlim metodları ilə tədrisidir. Fəal/interaktiv təlim şagirdlərin qarşılıqlı əməkdaşlıq şəraitində fəallıq göstərmələrini tələb edir. Bu təlimin əsas məqsədi şagirdlərin dərsdə aktivliyini təmin etmək, sərbəst şəkildə bilik qazanmalarını təmin etmək, onlarda idrak fəaliyyətini inkişaf etdirmək, yoldaşları ilə əməkdaşlıq etmə bacarığını formalaşdırmaqdır. Bunun üçün fəal/interaktiv təlimin müxtəlif texnikalarından, metodlarından istifadə olunur ki, bunlar aşağıdakılardır: beyin həmləsi, rollu oyunlar, müzakirə, tədqiqatın aparılması, təşkilati metodlar, yaradıcılığa yönəlmiş metodlar və s. Bu metodların hər birinin müxtəlif iş üsulları, texnikaları mövcuddur.

**Rollu oyunlar:** səhnələşdirmə, modelləşdirmə, rollu oyun.

**Beyin həmləsi:** əqli hücum, klaster, auksion, BİBÖ, anlayışın çıxarılması, söz assosiasiyaları.

**Təşkilati metodlar:** ziqzaq yaxud mozaika, karusel.

**Tədqiqatın aparılması metodunun texnikaları:** kublaşdırma, Venn diaqramı, layihə hazırlanması, problemin həlli, qərarlar ağacı, ideyalar xalısı.

**Qruplara bölünmə texnikaları:** ad günləri sırası üzrə saymaq, say, püşkatma, mozaika.

**Müzakirə metodları:** debat, diskussiya, müzakirə xəritəsi, klassik dialoq, akvarium.

Beləliklə, bu cür bir sıra metodlar vardır ki, müasir dərslərdə tətbiq olunur. Ədəbiyyat dərslərində geniş yayılmamış, amma bir o qədər faydalı olan metodlar sırasına **T sxem**, **konseptual cədvəl** daxildir. T sxem metodu bədii əsərlərin, dramatik əsərlərin məzmununun mənimsədilməsinə, konseptual cədvəl isə obrazların təhlili, onların xarakter və xüsusiyyətlərinin açılmasına kömək edir. Yuxarıda adları

sadalanan digər metodların hər birinin ədəbiyyat dərslərində tətbiq olunması vacib deyil. Əsas olan mövzuya uyğun metodu seçib tətbiq etməkdir.

İstər ənənəvi üsulla keçirilən dərslər, istərsə də fəal/interaktiv təlim əsasında qurulan dərslər müəyyən mərhələlərdən ibarət olur. Lakin hər iki tədris formasında müəyyən fərqlər özünü göstərir. Ənənəvi dərsin mərhələlərinə nəzər salaq:

1. Sinfin təşkili
2. Keçmiş mövzunun sorğusu və yekunlaşdırılması
3. Keçmiş mövzu ilə yeni mövzu arasında əlaqələndirmə
4. Yeni mövzunun izahı
5. Ev tapşırığının verilməsi

İndi isə fəal/interaktiv təlimin 7 mərhələsinə nəzər salaq:

1. Motivasiya
2. Tədqiqatın aparılması
3. Məlumat mübadiləsi
4. Məlumatın müzakirəsi və təşkili
5. Ümumiləşdirmə və nəticələrin çıxarılması
6. Yaradıcı tətbiqetmə
7. Qiymətləndirmə və refleksiya

Göründüyü kimi, hər iki təlim formasının mərhələlərində oxşar və fərqli cəhətlər özünü göstərir. Ənənəvi təlim müəllimdən daha çox fəallıq gözləyir, yaddaşa əsaslanır, şagirdlərin hazır bilikləri mənimsəməsinə imkan yaradır və nəticədə dərslərdə şagirdlərin bir qismi fəal, digər qismi isə passiv iştirak edir. Fəal/interaktiv təlim isə müəllimlə şagirdin birgə əməkdaşlığına əsaslanır, bu zaman şagirdlər təlimin fəal iştirakçısına çevrilir. Ənənəvi təlimlə müasir təlimi birləşdirən cəhətlər də mövcuddur. Hər ikisi şagirdlərdən yaradıcılıq tələb edir, müstəqil işlər, mövzuya uyğun inşa, esse yazmaq bacarıqlarını formalaşdırır.

Müasir dövrdə müəllimlər dram əsərlərinin tədrisi zamanı bir sıra metodlardan istifadə edirlər ki, bunlardan ən geniş yayılanı rollu oyunlardır. Əksər müəllimlər dramatik növün müxtəlif janrlarında olan əsərlərin öyrədilməsi üçün rollar üzrə oxu metodundan istifadə etməklə kifayətlənirlər. Lakin əsərlərin təhlili üçün müsahibə metodundan istifadə olunması daha məqsədəuyğundur ki, bu metoda da az müraciət olunduğunu müşahidə edirik. Bu isə əsərin məzmun və ideyasının, obrazların xarakterinin şagirdlər tərəfindən dərindən mənimsənilməməsinə gətirib çıxarır. Ədəbiyyat dərslərində geniş tətbiq olunan metodlardan biri "Beyin həmləsi"dir. Bu metod ədəbi əsərlərdə çətinliklə mənimsənilən məsələlərin həllində əhəmiyyətli rol oynayır. O, şagirdləri müstəqil fəaliyyətə qoşulmağa, sərbəst fikir söyləməyə, onların məntiqi təfəkkürünün inkişaf etməsinə kömək edir.

Dərsləri yeni təlim üsulları ilə tədris etmək ənənəvi təlimdən imtina etmək anlamını daşımır. Yeniliyin içərisində ənənəviliklə sintez də vacib məsələdir. Ənənəvi təlimdəki uğurlu nəticələri yeni təlim texnologiyaları ilə birləşdirib dərsi bu müstəvidə tədris etmək daha səmərəli olar. Ədəbiyyat dərslərində tədrisə cəlb edilmiş elə mövzular vardır ki, onların fəal/interaktiv təlimlə öyrədilməsi uğurlu nəticələr vermir. Məsələn, klassik dövr ədəbiyyatını tədris edərkən ənənəvi təlimə ehtiyac duyulur. Ona görə də burada əsas məsələ hər iki təlimi əlaqələndirib faydalı olan metodu ortaya çıxarmaqdır. Bəzən yeniliyi, yeni üsulları yerindəcə dərsdə tətbiq etməyə çalışırıq, lakin unutmaq olmaz ki, bu cəhdlər istənilən nəticəni verməyə bilər. Metodika ənənəvi təlimin özünü sübut etmiş nəticələrini yeni təlim texnologiyaları ilə əlaqələndirib dərsə tətbiq etməyi müəllimlərə öyrətməlidir. Müasir dövrdə istedadlı, inkişafa meyilli ədəbiyyat müəllimləri ortaya çıxan yenilikləri sadə şəkildə deyil, öz təcrübələri ilə əlaqələndirərək maraqlı dərs modelləri qururlar. Bu cür dərslərdə şagirdlərin idraki fəallığı artır, əməkdaşlıq, tədqiqatçılıq bacarığı formalaşır.

Ənənəvi üsulla və yeni təlim texnologiyaları ilə keçirilən dərslərdə müxtəlif yanaşmalar, dərsə verilən tələblər mövcuddur:

**Dərsə verilən ənənəvi tələblər:**

1. Şagirdlərin fəallığı təmin edilməlidir;
2. Müxtəlif üsullardan istifadə edilərək dərs səmərəli şəkildə qurulmalıdır;
3. Dərsdə məntiqi və psixoloji baxımdan tamlıq qorunmalıdır;
4. Kollektiv işlə fərdi iş uzlaşdırılmalıdır.

**Dərsə verilən müasir tələblər:**

1. Təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici xüsusiyyətləri vəhdətdə həyata keçirilməlidir;
2. Əyani və texniki vasitələrdən istifadə olunmalıdır;
3. Şagirdlərin fəallığı, tədqiqatçılıq bacarığı inkişaf etdirilməlidir;
4. Dərsin quruluşu mövzuya uyğun və hamı üçün aydın olmalıdır;
5. Şagirdin müəllim və yoldaşları ilə əməkdaşlığı inkişaf etdirilməlidir;
6. Dərsdə əsas didaktik vəzifələr yerinə yetirilməlidir.

Orta məktəblərdə tədris olunan dramatik əsərlər aşağıdakılardır:

1. H.Cavid “Ana”(VIII sinif)
2. M.F.Axundzadə “Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur”(X sinif)
3. N.Vəzirov “Müsibəti Fəxrəddin”(X sinif)
4. C.Məmmədquluzadənin “Anamın kitabı”(XI sinif)
5. H.Cavidin “İblis”(XI sinif)
6. C.Cabbarlının “Oqtay Eloğlu”(XI sinif)
7. S.Vurğunun “Vaqif”(XI sinif)
8. İ.Əfəndiyevin “Xurşidbanu Natəvan”(XI sinif)

İndi isə yuxarıda adları çəkilən əsərlərdən C.Cabbarlının “Oqtay Eloğlu” əsərinin müxtəlif variantlarda tədrisinə nəzər salaq. Metodik vəsaitdə bu mövzunun tədrisinə 4 saat ayrılmışdır. Birinci və ikinci saatlarda əsərin məzmununun mənimsədilməsi, üçüncü saatda əsərin və obrazların təhlili, dördüncü saatda isə müzakirə və yaradıcı tətbiqetmə nəzərdə tutulmuşdur. Mövzunun tədrisinə nəzər salaq.

**Mövzu:** C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin məzmunu üzrə iş

**Standartlar:** 1.1.1; 1.1.3; 1.1.5.

**İnteqrasiya:** Ədəbiyyat

**İş üsulları:** əqli hücum, oxu, müzakirə

**İş forması:** kiçik qruplarda iş

**Resurslar:** dərslik, lüğətlər, iş vərəqləri, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005. Ədəbiyyat (XI sinif şagirdləri üçün elektron vəsait)

**Təlim nəticələri:** Əsəri hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam və geniş nağıl edir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

İlk olaraq şagirdləri salamlayırıq. Davamiyyət yoxlanıldıqdan sonra ötən dərs haqqında qısa şəkildə sorğu keçirilir. Ev tapşırığı yoxlanıldıqdan sonra yeni mövzunun tədrisinə keçid alınır. Motivasiya mərhələsi sonrakı mərhələlərin gedişatına təsir etdiyi üçün onu səmərəli şəkildə təşkil etmək məqsədəuyğundur.

Bunun üçün ekranda “Oqtay Eloğlu” tamaşasının ən təsirli səhnələrindən biri təqdim olunur ki, bu, Oqtayın bacısı Sevərlə görüşdüyü səhnədir. Bu epizod motivasiyanın yaradılması üçün vasitə rolunu oynayır. Suallar verilir və düşünmək, cavab hazırlamaq üçün vaxt elan edilir. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin kiçik qruplarda birləşib fikir mübadiləsi aparmalarına imkan yaradılır. Bunun ardınca həyata keçirilən müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatdırılır. Tədqiqat sualı: Milli mənafeyin uca tutulmasına səbəb nə ola bilər? Fərziyyələr dinlənilir və qeyd edilir. Tədqiqatın aparılmasına əsərdən dərslikdə verilmiş parçanın oxusu ilə başlanılır. Əsərin əvvəlindən bir səhifə həcmində mətn rollar üzrə oxunur. Müəyyənləşdirilmiş cütlər oxuyanlara həmin mətnin məzmunu ilə bağlı suallar verir. Sualların hazırlanmasına müəllimin nəzarət etməsi, istiqamət verməsi faydalıdır. Sualların hər birinin konkret məqsədi olmalıdır. Məsələn, məzmunun qavranılmasına diqqətli olmağa istiqamətləndirən suallar: Tamara nədə çətinlik çəkir? Dursun nə üçün həyəcanlanır? O, Oqtayı nə barədə xəbərdar edir? Nəticə çıxarmağa yönəldən suallar: Tamaşaya hazırlıq zamanı Oqtay hansı çətinliklərlə qarşılaşır? Tamaşanın başlanmasında Oqtayın israrlı olmasına səbəb nədir? Cütlərin suallarına rollar üzrə oxuyanlar qənaətləndirici cavab verməsələr, digər şagirdlərin cavabları dinlənilir. Bu proses məzmunun dərindən qavranılmasına, ideyanın açılmasında əhəmiyyətli olan incəliklərin mənimsənilməsinə şərait yaratmalıdır. Nəzərdə tutulan parçanın oxusundan sonra seçilmiş hissənin məzmununun nağıl edilməsinə vaxt ayrılır. Şagirdlərin bu məqsədlə plan tərtib etmələri məqsədəuyğundur. Nağıletmələrə şagirdlərin münasibət bildirmələrinə, yığcam diskussiyaya imkan yaradılır. Müəllimin istiqamətləndirici sualları əsasında işə yekun vurulur. Daha sonra qiymətləndirmə mərhələsinə keçid alınır. Formativ qiymətləndirmə müvafiq qiymətləndirmə meyarları və səviyyələri üzrə aparılır. Sonda müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Mövzu:** C.Cabbarlının “Oqtay Eloğlu” əsərinin məzmunu üzrə iş

**Standartlar:** 1.1.1; 1.1.3; 1.1.5.

**İnteqrasiya:** Ədəbiyyat

**İş üsulları:** oxu, müzakirə, təqdimat

**İş forması:** kiçik qruplarda iş

**Resurslar:** dərslik, lüğətlər, iş vərəqləri, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005. Ədəbiyyat (XI sinif şagirdləri üçün elektron vəsait)

**Təlim nəticələri:** Faciədəki mühüm əhvalat və hadisələrin arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yaradıcı nağıl edir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

Müəllim sinfə daxil olarkən şagirdləri salamlayır. Davamiyyət yoxlanılır və ötən dərsin mövzusu ilə əlaqədar yığcam şəkildə sual-cavab olunur. Ev tapşırığı yoxlanıldıqdan sonra aydın olmayan məsələlərin izahı verilir və növbəti mövzuya keçid edilir. Kiçik qruplarda birləşən şagirdlər, ilk növbədə, faciənin ikinci, üçüncü və dördüncü pərdələrinin məzmunu, onlarda əks olunan fikirlərlə bağlı qənaətlərini bölüşürlər. Təqdimata hazırlaşan qrup üzvləri aşağıdakı sualların cavablarını

dəqiqləşdirirlər. "Səhnə yoldaşlarının Oqtay barədəki fikirləri düşüncələrinizdə hansı dəyişiklik yaratdı? Səmədlə Oqtayın dialoqu bildiklərinizə yeni nə əlavə etdi? Firəngizin Oqtaya münasibətini və bu qızın ailəsindəki vəziyyəti necə təsvir edərsiniz? Firəngizin "xəyanəti" barədə Oqtayda hansı düşüncələr yaranır?" Göründüyü kimi, suallar əsərin məzmununu xatırlatmağa xidmət etmir. Onlara əhatəli cavabların hazırlanması əhvalat və hadisələrin arasındakı səbəb-nəticə əlaqələrini, obrazların xarakterindəki başlıca cəhətləri başa düşməyə əlverişli imkan yardır. Növbəti tapşırıqla bağlı təqdimatların dinlənilməsinə və müzakirəsinə dərsdə xüsusi diqqət yetirilir. Əsərin seçilmiş hissələrinin üzərində aparılan iş, onların yaradıcı – əlavələr edilməklə nağıl edilməsi, müzakirələrin aparılması əsərin dərindən qavranılmasına imkan yaratmaqla bərabər, ideyanın başa düşülməsini də asanlaşdırır. Aparılan işə müəllimin istiqamətləndirici sualları əsasında yekun vurulur. Qiymətləndirmə müəyyən olunmuş meyarlar və səviyyələr üzrə formativ qiymətləndirmə əsasında aparılır. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini tapşırır.

**Mövzu:** C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin təhlili üzrə iş

**Standartlar:** 1.2.1; 1.2.4; 2.1.2.

**İnteqrasiya:** Ədəbiyyat

**İş üsulları:** oxu, müzakirə, diskussiya, problemin həlli

**İş forması:** cütlüklərlə və ya kiçik qruplarda iş

**Resurslar:** dərslik, lüğətlər, iş vərəqləri, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005. Ədəbiyyat (XI sinif şagirdləri üçün elektron vəsait)

**Təlim nəticələri:** Faciəni kompozisiya, dil, üslub baxımından təhlil edir; Faciənin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimaisiyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir; Faciənin dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

İlk olaraq müəllim şagirdləri salamlayır. Davamiyyət yoxlanıldıqdan sonra ötən dərs haqqında qısa şəkildə sorğu keçirilir. Ev tapşırığı yoxlanıldıqdan sonra yeni mövzunun tədrisinə keçid alınır. Motivasiya mərhələsinin reallaşdırılması fərqli yollarla həyata keçirilə bilər. Vaxta qənaət baxımından suallardan istifadə yolunun seçilməsi məqsədəuyğundur. Oqtayla bağlı müəllimin sualları bu obrazın ciddi təhlilinə ehtiyac olduğunu təsdiq edir. Əsərin oxusu, məzmun üzrə aparılan işlər şagirdlərin bu qəhrəmanla bağlı fikirlərinin natamam olduğunu deməyə əsas verir. Müəllim istiqamətləndirici suallar verməyə davam edir. Yığcam müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir. Tədqiqat sualı: Oqtayı öz idealına xəyanətdə günahlandırmaq olarmı? Fərziyyələr dinlənilir və qeyd aparılır. Araşdırmaya dərslikdəki təhlil materialının oxusu ilə başlanılır. Dərslikdə təklif olunmuş tapşırıq həm oxunun səmərəliliyinə, həm də şagirdlərdə diskussiya bacarığının inkişafına əhəmiyyətli təsir edir. Oxunun fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Hər mətnkənarı sualın cavabının oxusundan sonra şagirdlər cütlük şəklində fikir mübadiləsi aparırlar. Bu onlara oxuduqları parçadakı fikirləri ümumiləşdirməyə imkan yaradır. Şagirdlər diskussiya üçün təklif edilmiş sualla

(Oqtayın əsl faciəsi nədir?) tanış olur və mövqelərini müəyyənləşdirirlər. İki böyük qrupa ayrılan tərəflərə fikirlərini sərbəst ifadə etmələri üçün imkan yaradılır. Şagirdlərə sualın üzərində düşünmək, mövqelərini müəyyənləşdirmək imkanı verilir. Müəllimin istiqamətləndirici sualları nəticənin çıxarılmasına yol açır. Şagirdlərdə belə bir qənaət yaranır ki, Qərb mədəniyyətinin son nailiyyətlərini mənimsəyərək vətənlərinə dönən Oqtay kimi gəncləri qaranlıq mühit boğur. Həqiqət axtarışı və həqiqətsizliyə nifrət bu gəncliyin faciəsinin əsasını təşkil edir. Oqtay iki tərəfin zərbəsini öz üzərində hiss edir: aşağılar "oyunbaz" olduğu üçün onu ələ salır, anası "yasxanalara" buraxılmır, yuxarılar "it dəftərində adı olmayan", "alçaq yerlərdə" çalışan adam kimi təhqir edir. Bütün bunlar nəzərə alındıqda Oqtayı öz idealına xəyanət etməkdə günahlandırmaq mümkün deyildir. Formativ qiymətləndirmə aparılır. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Mövzu:** C.Cabbarlının "Oqtay Eloğlu" əsəri üzərində yaradıcı tətbiqetmə

**Standartlar:** 3.1.1; 3.1.2; 3.1.3.

**İnteqrasiya:** Ədəbiyyat

**İş üsulları:** müzakirə, yazı, fərdi iş

**İş forması:** kiçik qruplarda iş

**Resurslar:** lüğətlər, iş vərəqləri, C.Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005. Ədəbiyyat (XI sinif şagirdləri üçün elektron vəsait)

**Təlim nəticələri:** İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratından istifadə edir; Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır; Təhlil xarakterli inşa, esse yazır.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

Müəllim sinfə daxil olarkən şagirdləri salamlayır. Davamiyyət yoxlanılır və ötən dərsin mövzusu ilə əlaqədar yığcam şəkildə sual-cavab olunur. Ev tapşırığı yoxlanıldıqdan sonra aydın olmayan məsələlərin izahı verilir və növbəti mövzuya keçid edilir. Şagirdlərin təhlil xarakterli inşa və esse ilə bağlı bilik və bacarıqlarını xatırlamağa istiqamətlənmiş yığcam müzakirə aparılır. Müzakirənin sonunda tədqiqat sualı müəyyənləşdirilir. Tədqiqat sualı: Təhlil xarakterli inşa və essedə daha çox önəm verilən məsələlər hansılardır? Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır. Mövzular elan olunur: "Oqtay Eloğlu" əsərinin təhlili" mövzusunda inşa; "Oqtayın Firəngizi qətlə yetirməsinə haqq qazandırmaq olarmı?" mövzusunda esse. Seçilmiş mövzular üzrə fikir mübadiləsi aparılır. Şagirdlər mənbələr üzrə apardıqları araşdırmaların nəticələrini nəzərdən keçirir, onlardan necə istifadə edəcəklərini müəyyənləşdirirlər. Ümumi hazırlıq başa çatdıqdan sonra yığcam müsahibənin aparılması məqsədəuyğun hesab olunur. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərin bir-birinin yazısını oxumalarına imkan yaradılır. Onlar oxuduqları yazının müsbət cəhətlərini göstərməklə yanaşı, öz arzularını da ifadə edirlər. Şagirdlərə konkret meyarlara istinad etmələri üçün istiqamət verilir. Meyarları müəyyənləşdirməkdə müəllim sərbəstdir. Onların bir

variantı aşağıdakı məzmunda ola bilər: – İnşa və essedə mövzu əhatə olunub? – İnşa üçün müxtəlif mənbələrdən faktlar seçilib? – Essedə şəxsi təəssüratlar necə ifadə edilib? – İnşada faciənin ideyasına, probleminə münasibət bildirilib? Sinfin səviyyəsindən asılı olaraq, meyarlar daha sadə məzmunda hazırlana bilər. Yazılardan nümunələrin oxunmasına və müzakirəsinə vaxt ayrılır. Şagirdlərə öz yazıları barədə yoldaşlarının bildirdiklərinin üzərində evdə düşünmək, deyilənləri nəzərə almaq və təkmilləşdirmə aparmaq təklif edilir. Müəllimin istiqamətləndirici sualları şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına imkan verir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təhlil xarakterli inşada, əsasən, əsərin mövzusu, ideyası, onda qaldırılmış mühüm problem ön plana çəkilir. Essedə isə şəxsi təəssüratın ifadəsi önəmli yer tutur. Qiymətləndirmə müəyyən olunmuş meyarlar və səviyyələr üzrə formativ qiymətləndirmə şəklində aparılır. Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

Bütün bu deyilənlərdən əlavə, şagirdlər dramatik növün müxtəlif janrları, dram əsərlərinin quruluşu haqqında əsaslı məlumatlara malik olmalıdırlar ki, dərsdə onlara qaranlıq qalan məqamlar olmasın. Şagirdlərə praktiki istiqamətlə yanaşı, aşağıdakı nəzəri məlumatlar da öyrədilməlidir. Yazılı ədəbiyyat şifahi xalq ədəbiyyatı əsasında formalaşmış, müəyyən qayda-qanunlar çərçivəsinə malik müəllifli ədəbiyyatdır. Hər bir ədəbi növdə olduğu kimi dramatik növdə olan janrlar da yazılı ədəbiyyata gələnə qədər şifahi ədəbiyyatın süzgəcindən keçmişdir. Bir çox qələm ustaları öz əsərlərini xalq tamaşaları, oyunları əsasında yazmışdır. Bir sözlə, folklor ədəbiyyatı yazılı ədəbiyyatın meydana gəlməsinin qaynağı olmuşdur. Dram əsərlərinin digər ədəbi növlərdən fərqi odur ki, onlar, tamaşaya qoyulmaq üçün yazılır. Bu əsərlərdə iştirak edən obrazların nitqi iki şəkildə canlandırılır. Bunlardan birincisi monoloq, ikincisi dialoqdur. Monoloq obrazın təkbaşına, öz-özü ilə olan nitqidir. Dialoq isə ondan fərqli olaraq, digər obrazların iştirakı ilə baş tutur. Dram əsərlərində remarka adlanan hissəcik var ki, bu, müəllifin nitqini ifadə etmək üçün verilir. Remarkalarda hadisələrin harada, nə vaxt, necə, kimlərin iştirakı ilə baş verməsi haqda məlumatlar verilir. Əsəri səhnələşdirən rejissor cərəyan edən hadisələr haqqında məlumatı,

obrazların nə geyinəcəyini, necə davranacağını remarkalar vasitəsilə öyrənir. Remarkalar haqqında daha aydın təsəvvür yaratmaq üçün C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyasından bir hissəyə nəzər salaq: "Rüstəm bəyin zal otağı. Ortalıqda uzun stol, ətrafında sandalyalar üstə əyləşiblər cəmiyyəti-xeyriyyə üzvləri; başdan Rüstəm bəy ki, cəmiyyəti-xeyriyyənin sədridir; onun sağ tərəfində Zivər xanım, sol tərəfində Teymur bəy. Ondan savayı əyləşiblər: Mirzə Zeynal – millətpərəst, Səlimə xanım – müəllimə, Aslan bəy, İsmayıl ağa, Münəvvər xanım, Səməd Vahid, Hüseyn şahid, yanında məktəb şagirdi, fəsli. Kənarda diz üstə əyləşiblər: Mirzə Məhəmmədəli, Mirzə Bəxşəli, yanında bir məktəb şagirdi, börklü. Qapının yanında üç-dörd nəfər fəqir və qeyri adamlar ki, ayaq üstə durub iclasa tamaşa edirlər. Otağın küncündə, camaat görükməyən yerdə, pərdə dalında Zəhrabəyim və Gülbahar oturub, məclisə nəzər eləyirlər. Üzvlərin hərəsinin qabağında bir vərəq ağ kağız və qələmtəraş; sədrin qabağında zəng. Adamların çoxu papiros çəkir".[C.M; "Anamın kitabı")

Yazılı ədəbiyyatda dramatik növün ilk nümunələrinə antik yunan ədəbiyyatında rast gəlirik. Dramatik növün yazılı ədəbiyyatdakı janrlarına faciə, komediya və dram daxildir. Bundan əlavə, kiçikhəcmli janrlar da var ki, bunlara vodevil, fars, melodram, leze dram, ierodram daxildir. Faciə əzab-əziyyət çəkmək mənasını ifadə edir və qəmli hadisələri özündə əks etdirir. Bu söz bəzən tragediya termini ilə əvəz olunur. Tragediya yunan sözü olub, "keçilər haqqında nəğmə" deməkdir. Qədim yunanlar allahlar üçün keçi qurban kəsərmişlər. Tragediya qəhrəmanları gələcək amalları uğrunda özlərini qurban verirlər. Sözün doğrusunu belə ifadə etmək olar ki, həmin qəhrəmanların qurban getməsinə səbəb sosial mühitdir. Faciə qəhrəmanlarının həzin sonu həm bu əsərləri oxuyanların, həm də onlar səhnələşdirilərkən teatrlarda izləyənlərin dərindən sarsılmasına yol açır. Bu əsərlərdə əsas obraz ilə ictimaiyyət arasındakı qarşıdurmanın şahidi oluruq. Qəhrəmanın gözəl arzularını həyata keçirməsinə imkan verməyən ictimai mühit, eyni zamanda onu qınaq atəşinə tutur. Faciə qəhrəmanının işıqlı arzuları o, həyatdan köçəndən sonra da onun tərəfdarlarının, onu dəstəkləyənlərin qəlbində yaşayır. Onlar qəhrəmanın ürəyində

qalan arzularını, istəklərini həyata keçirirlər. İlk faciələr Attikada yaranmışdır. Yunan faciəsi uzun inkişaf yolu keçərək Esxil, Sofokl, Evripid kimi görkəmli yunan sənətkarlarının yaradıcılığında özünün ən yüksək zirvəsinə qədəm qoymuşdur. Sonralar faciə janrı alman, fransız, ispan ədəbiyyatında da yeni tərzdə formalaşmışdır. Şiller, Höte, Lope de Veqa, Kalderon, Kornel, Rassin kimi yazıçılar böyük faciə ustalarıdır. Bir-birindən maraqlı, müxtəlif mövzulara aid faciələr yazan dahi sənətkarlardan biri də Şekspirdir. O, “Hamlet”, “Otello”, “Kral Lir”, “Yuli Sezar” kimi ədəbiyyatda dərin iz buraxmış faciələrin müəllifidir. Bu faciələr ictimai və fəlsəfi məzmunu ilə seçilir.

Azərbaycan ədəbiyyatında ilk faciə Nəcəf bəy Vəzirovun 1896-cı ildə qələmə aldığı “Müsibəti-Fəxrəddin” faciəsidir. Daha sonra ədəbiyyatımızda Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid, C.Cabbarlı tərəfindən çox maraqlı faciə nümunələri yaranmışdır. Bu görkəmli sənətkarlarımız “Bəxtsiz cavan”, “Dağılan tifaq”, “Ağa Məhəmməd şah Qacar”, “Nadir şah”, “İblis”, “Od gəlini” kimi bənzərsiz faciə nümunələrini ədəbiyyatımıza daxil etmişlər.

Dramatik növün qədim tarixə malik janrlarından biri də komediyadır. Əvvəllər faciə və komediya birlikdə işlənirdi, sonradan onlar bir-birindən ayrı inkişaf edir. Komediya yunan sözü olub, komos sözü “şən kütlə”, ode “mahnı, nəğmə” mənalarını ifadə edir. İnsanlar şən mahnılar oxuyar, oynayar, izləyiciləri güldürərdilər. Komediyaya başqa cür məzhəkə də deyilir. Bu söz “gülmək”, “lağ etmək” mənalarını özündə ehtiva edir. Komediyada əsas gülüş obyekti insanın əməli ilə danışığı arasındakı ziddiyyətlər, onun xarakterində, daxili aləmində olan nöqsanlardır. Aristotel komediya haqqında söyləmişdir: “Komediya, dediyimiz kimi, pis adamların əks etdirilməsidir, amma bunu da tam qəbahət mənasında yox, o mənada başa düşmək lazımdır ki, gülməli adam özü də eybəcərliyin bir hissəsidir. Gülməli adam - heçkimə iztirab və zərər verməyən hər hansı bir müəyyən səhv və çirkinlikdir. Misal üçün uzağa getmək lazım deyil, elə komik maska özü bir növ eybəcərlik və çirkinlikdir.”[Aristotel) Buradan belə qənaətə gəlmək olar ki, komediya cəmiyyətdə baş verən eybəcərlikləri bədii gülüş vasitəsilə tənqid edən, insanları yaramaz

əməllərindən çəkindirib islah etməyə çalışan janrdır. Komediyada nəzərdə tutulan bədii gülüş çoxmənalı ola bilər. Burada həm yumoristik, həm də satirik gülüşdən istifadə olunur. Azərbaycan ədəbiyyatında isə M.F.Axundovun, C.Məmmədquluzadənin yaradıcılığında rast gəlirik. M.F.Axundov 1850-55-ci illər arasında altı komediya yazaraq ədəbiyyatımızda dramatik növün ilkin rüşeymlərinin yaranmasına səbəb olmuşdur. Dramaturqun qələmə aldığı ilk komediyası "Hekayəti Molla İbrahim-Xəlil Kimyagər"dir. Sonrakı illərdə "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Sərgüzəşti Mərdi-Xəsis" komediyalarını yazmışdır. Sonralar komediya yazmaq ənənəsi davam etdirilmiş və buna təlabat artmışdır. Nəcəf bəy Vəzirov "Yağışdan çıxdıq, yağmura düşdük", "Daldan atılan daş topuğa dəyər", "Adı var, özü yox", "Sonrakı peşmançılıq fayda verməz" komediyalarını qələmə almışdır. Yazıçı bu komediyalarında avamlığın, cəhalətin insanları uçuruma aparması məsələsinə toxunmuşdur. C.Məmmədquluzadə öz yaradıcılığında fərqli mövzulara toxunmuş və komediyalarında həmin mövzulara müraciət etmişdir. "Kişmiş oyunu", "Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı" komediyaları bu cür əsərlərdəndir. Eyni zamanda yazıçı bəzi əsərlərində tragediya və komediyanın qovşağını yaratmış, bununla da "Ölülər", "Anamın kitabı" tragikomediyaları ərsəyə gəlmişdir. Bəzən komediyadakı mənfi obrazları ifşa etmək üçün gülüşün müxtəlif növlərindən istifadə olunur. Buraya kinayə, satira, sarkazm, yumor, məzhəkə və s. daxildir. Bu cür əsərlərdə mənfi tipin mənəvi aləmi ilə danışıqları, hərəkətləri arasında təzad özünü göstərir. Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun musiqili komediyasındakı Məşədi İbad obrazı buna nümunədir. Məşədfi İbad pulludur və gənc yaşında olan Gülnazı almaq eşqinə düşüb. Varı-dövləti olduğu üçün özünə güvənir. Pullu olsa da, zahiri görkəmcə ürküdücüdür, lakin özünü yaraşıqlı, cavan hesab edir. Onu qoca hesab edənlərə etiraz olaraq aşağıdakı sözləri deyir: "A kişi, bircə mən bilmirəm ki, camaat mənim harama qoca deyir! Vallah görünür ki, xalqın gözü pis görür...Qoca odur ki, dişləri olmaya, gözləri görməyə, qulaqları eşitməyə, özü də yerindən tərpənə bilməyə; mən ki, əlhəmdülillah, quş kimiyəm. Maşallah deyim ki, göz dəyməsin. Özüm də əlli yaşım ya ola, ya olmaya...İnsanın zahiri nə qədər çirkin olsa, batini bir o qədər gözəl

olar. Məsəl var ki, deyərlər: O olmasın, bu olsun. Əlbəttə, nə zərəri vardır, cavanlıq olmasın, pul olsun. Pul elə şeydir ki, qocanı cavan eylər və pulsuzluq da cavanı qoca eylər" [X.Əlimirzəyev,s. 350)

Dramatik növün əsas janrlarından biri də dramdır. Bu janr digər janrlardan ayrılaraq XVIII əsrdə müstəqil şəkildə formalaşmağa başlamışdır. Azərbaycan ədəbiyyatında əvvəlcə komediya və faciə, daha sonra isə dram janrı formalaşmışdır. Bu janrın ən gözəl örnəklərinə Ə.Haqverdiyevin, N.Vəzirovun, N.Nərimanovun, C.Cabbarlının, M.İbrahimovun, Ə.Məmmədxanlının yaradıcılığında rast gəlirik. Cəfər Cabbarlı "Aydın" və "Oqtay Eloğlu" pyeslərində pulun hökmranlığı altında əzilən cəmiyyətin acınacaqlı həyatını göstərmişdir. Sonralar ədəbiyyatımızda dram janrına bir qədər fərqli yanaşma mövcud olmuşdur. İlyas Əfəndiyev ilk dəfə lirik-psixoloji dram anlayışını ədəbiyyatımıza gətirmişdir. Bu növ dram əsərləri insanın hisslərinin, duyğularının, daxili aləminin, başlanğıcdan sona qədər dəyişən psixologiyasının təsvirini özündə əks etdirirdi. İ.Əfəndiyevin "Məhv olmuş gündəliklər", "Mənim günahım", "Unuda bilmirəm", "Sən həmişə mənimləsən" kimi əsərləri lirik-psixoloji dramın ən gözəl örnəklərindəndir. Dram janrı inkişaf etdikcə tədricən mənzum dram anlayışı ədəbiyyatımıza gəlməyə başladı. Dünya ədəbiyyatında bu janrın ilk nümunələrinə Şekspirin yaradıcılığında rast gəlmək mümkündür. Ədəbiyyatımızda isə mənzum dramın ilk və ən gözəl nümunələri ilə Hüseyn Cavidin yaradıcılığında tanış oluruq. Yazıçı "Ana", "Peyğəmbər" mənzum dramlarını, "Şeyx Sənan", "İblis", "Knyaz", "Səyavuş" mənzum faciələrini ustalıqla qələmə almışdır. Mənzum dram ənənəsi tədricən inkişaf edərək digər sənətkarların yaradıcılığına da öz töhfəsini vermişdir. Bu ənənədən çıxış edərək S.Vurğun "Vaqif", "Xanlar", "İnsan", "Fərhad və Şirin" mənzum dramlarını yazmışdır. Beləliklə, dram janrı bu cür ənənə ilə inkişaf edərək daha yüksək zirvəyə yüksəlmişdir.

# II FƏSİL

# DRAM ƏSƏRLƏRİNİN TƏDRİSİNDƏ FƏAL İNTERAKTİV TƏLİM METODLARI

## 2.1. VIII-X siniflərdə dram əsərlərinin tədrisi metodikası

Ədəbiyyat insanların duyğularını, fikirlərini, düşüncələrini, arzu və istəklərini özündə əks etdirən misilsiz söz xəzinəsidir. Məlumdur ki, ədəbiyyat şifahi və yazılı şəkildə yaranmış və inkişaf etmişdir. Şifahi ədəbiyyat daha qədim tarixə malik olduğu halda, yazılı ədəbiyyat nisbətən sonralar meydana gəlmişdir. Şifahi ədəbiyyatda olduğu kimi yazılı ədəbiyyatın da həyatı əks etdirmə üsulu baxımından üç növü vardır: lirik, epik və dramatik növ. Yazılı ədəbiyyatımızda dramatik növün əsası M.F.Axundzadənin 1850-ci ildə qələmə aldığı "Hekayəti-molla İbrahimxəlil kimyagər" komediyası ilə qoyulmuşdur.

Son zamanlarda Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası nəticəsində təhsil sahəsində əsaslı dəyişikliklər aparılmış, bu isə tədris sisteminin inkişafına, dərs vəsaitlərinin yenilənməsinə təkan vermişdir. Bu inkişaf öz növbəsində ümumtəhsil müəssisələrində yeni dərsliklərin, metodik vəsaitlərin müəyyən olunmasına və təkmilləşməsinə səbəb olmuşdur. Son illərdə təhsil sahəsində aparılan islahatlar nəticəsində dərslərin kurikulum əsasında fəal-interaktiv şəkildə, yeni təlim metodlarına əsaslanaraq qurulmasını müşahidə edirik. Hər bir fənnin ayrıca fənn kurikulumu və müəllimə köməkçi vasitə kimi metodik vəsaiti vardır. Belə ki, müəllimlər bu cür dərs vəsaitlərindən istifadə etməklə təlimi daha səmərəli şəkildə təşkil edə bilirlər. Orta ümumtəhsil məktəblərində yazılı ədəbiyyatın dramatik növündə olan əsərlərin tədrisi 8-11-ci siniflərdə aparılır. 8-ci sinif ədəbiyyat dərsliyinə nəzər salsaq görərik ki, dramatik növə uyğun olaraq Hüseyn Cavidin "Ana" dramı, 10-cu sinif ədəbiyyat dərsliyində M.F.Axundzadənin 1850-ci ildə qələmə aldığı geriliyin, cəhalətin tənqidinə, gənclərin inkişafının zəruriliyinə həsr olunmuş "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünü-

məşhur" komediyası və N.B.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsinin tədrisinə yer verilmişdir.

İndi isə Hüseyn Cavidin "Ana" əsərinin məzmun və təhlilinin tədrisinə diqqət yetirək.

**Mövzu:** Hüseyn Cavidin "Ana" əsərinin məzmunu üzrə iş

**Standartlar:** 1.1.1; 1.1.5; 2.1.1; 2.2.1.

**İnteqrasiya:** Azərbaycan dili

**Texnikalar:** müsahibə, müzakirə, təqdimat

**İş forması:** kiçik və böyük qruplarda iş

**Resurslar:** dərslik, şəkillər, iş vərəqləri, yazıçının portreti

**Təlim nəticələri:** Dramda tanış olmayan sözlərin mənalarını lüğətdən istifadə etməklə aydınlaşdırır; Dramda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir; Əsərlə bağlı təqdimatlarında bədii təsvir və ifadə vasitələrindən istifadə edir; Əsərlə bağlı müzakirələrdə nitq bacarığını nümayiş etdirir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi:**

**1.Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.** İlk olaraq şagirdləri salamlayırıq. Davamiyyət yoxlanıldıqdan sonra ötən dərs haqqında qısa şəkildə sorğu keçirilir. Ev tapşırığı yoxlanıldıqdan sonra yeni mövzunun tədrisinə keçid alınır.

**2. Motivasiya.** Bu mərhələ sonrakı mərhələlərin gedişatına təsir etdiyi üçün onu səmərəli şəkildə təşkil etmək məqsədəuyğundur. Bu zaman H.Cavidə həsr olunmuş "Cavid ömrü" filmindən bir fraqment göstərilir.Şagirdlərdə yazıçının yaradıcılığı ilə maraqlanmaq üçün həvəs yaranır. Müəllim şagirdlərə "İzlədiyiniz bu fraqment sizdə hansı fikirləri formalaşdırdı?" sualı ilə müraciət edir. Bu kimi suallar əsasında müsahibə aparılır və belə bir tədqiqat sualı formalaşdırılır: Sizcə yazıçının bu əsəri yazmaqda məqsədi nədir? Şagirdlərin fərziyyələri dinlənilir.

**3. Tədqiqatın aparılması.** Əsərin məzmununun şagirdlər tərəfindən dərindən mənimsənilməsi üçün rollar üzrə oxunun tətbiq edilməsi daha doğrudur. Kiçik qruplar şəklində birləşən şagirdlər əsəri səsli şəkildə, rollar üzrə oxusalar mətni tam şəkildə qavramaları daha asan olar. Oxu ilə yanaşı, "Ana" əsərinin internete yerləşdirilmiş tamaşasından səhnələrə baxılması da məqsədəuyğundur. Beləliklə, şagirdlər əsəri daha yaxşı başa düşə bilərlər. Oxu mərhələsi bitdikdən sonra şagirdlər mətnin kənarlarında verilmiş sualları oxuyub cavablandırırlar.

**4. Məlumat mübadiləsi.** Bu mərhələdə əsas məqsəd şagirdlərin həm əsərin məzmununu, həm də dram janrı haqqında nəzəri bilikləri nə dərəcədə qavradıqlarını müşahidə etməkdir. Mövzunun ilkin tədrisi zamanı şagirdlərin əsəri mənimsəmələri sonrakı mərhələlərdə əsərin təhlili, yaradıcı tətbiqetməsi baxımından önəmlidir. Müəllim çalışmalıdır ki, bu mərhələdə şagirdlərin dərsə olan marağını artırsın. Şagirdlər tədqiqat apardıqdan sonra əldə etdikləri nəticələri yoldaşları ilə bölüşürlər.

**5. Məlumatın müzakirəsi və təşkili.** Şagirdlərin dərsdə fəal iştirakını təmin etmək, onların yoldaşları ilə əməkdaşlıq etmək bacarığını inkişaf etdirmək müzakirənin səmərəli təşkil olunmasına şərait yaradır. Müzakirə zamanı şagirdlər öz təkliflərini, fikirlərini sərbəst şəkildə ifadə edirlər.

**6. Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələyə qədər hansı fikirlər və təkliflər qeyd olunmuşdusa, həmin fikirlər ümumiləşdirilir və ümumi nəticə çıxarılır. Şagirdlər müəllifin dramda hansı sətiraltı mənaları verdiyini, mənfi obrazların timsalında cəmiyyətdə baş alıb gedən ictimai ədalətsizlikləri ön plana çəkməsi barədə fikirlərini söyləyirlər. Nəticələr şagirdlərin şəxsi fikirləri ilə müqayisə olunur.

**7. Yaradıcı tətbiqetmə.** Bu zaman şagirdlərə yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi və öyrəndiklərini praktik cəhətdən tətbiq etmələri üçün şərait yaradılır. Bu mərhələni şagirdlər əqli cəhətdən yorulmasın deyə yığcam şəkildə təşkil etmək lazımdır. Şagirdlər əsərdə onlara tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək üçün "Auksion" üsulundan istifadə edirlər. Bütün şagirdlərin fəal iştirakını təmin etmək həm dərsi yaxşı mənimsəmək, həm də təlimdə bərabərlik prinsipinin yerinə yetirmək baxımından vacibdir.

**8. Qiymətləndirmə və refleksiya.** Qruplar müəyyən olunmuş meyarlar üzrə qiymətləndirilir. Qiymətləndirmə zamanı qrupların bilik səviyyəsi, dərsdə fəal iştirakları, nizam-intizam məsələləri nəzərə alınır. Refleksiyaya keçid etməzdən əvvəl ev tapşırıqlarının verilməsi daha məqsədəuyğundur. Ev tapşırığı kimi bu əsərin oxşar mövzuda olan digər əsərlərlə müqayisəsini aparmaq tapşırılır. Refleksiya zamanı isə şagirdlərin əldə etdikləri yeni məlumatlar onların yaddaşında möhkəmlənsin deyə soruşulur.

H.Cavidin "Ana" əsərinin təhlili üzrə işin necə tədris olunduğuna nəzər salaq.

**Mövzu:** Hüseyn Cavidin "Ana" əsərinin təhlili üzrə iş

**Standartlar:** 1.2.2; 1.2.4; 2.1.1; 2.1.2; 2.2.1.

**İnteqrasiya:** Ədəbiyyat, Azərbaycan dili

**İş üsulları:** konseptual sənəd, müzakirə, debat, Venn diaqramı,problemin həlli, təqdimat

**İş forması:** kiçik və böyük qruplarda iş

**Resurslar:** dərslik, lüğətlər, iş vərəqləri, film

**Təlim nəticələri:** Müxtəlif hallarda nitqindən çıxış etməklə obrazları səciyyələndirir; Əsərin ideya-məzmununu şərh edir və münasibət bildirir; Əsərin təqdimatını edərkən bədii təsvir və ifadə vasitələrindən istifadə edir; Dramla bağlı fikirlərini qeyd edir; Əsərlə bağlı müzakirələrdə nitq bacarığını formalaşdırır.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

**Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması:** İlk olaraq şagirdlərlə salamlaşırıq. Davamiyyət yoxlanıldıqdan sonra ötən dərs haqqında qısa şəkildə sorğu keçirilir. Ev tapşırığı yoxlanıldıqdan sonra yeni mövzunun tədrisinə keçid alınır.

**Motivasiya:** Bu mərhələ sonrakı mərhələlərin uğurlu inkişafında zəmin rolunu oynayır. Müəllim şagirdlərdə dərsə maraq oyatmaq üçün Zeynəb Xanlarovanın ifasında verilən "Ananın səsi" mahnısını şagirdlərə dinlədə bilər. Və ya şagirdlərə açıq tipli suallarla müraciət etmək olar: "Sənətkarın əsərdə çatdırmaq istədiyi əsas ideya nədən ibarətdir? Əsərin ideyasının daşıyıcı obrazı və ya obrazları kimlərdir?".

Bu cür suallar əsasında müsahibə aparılır və tədqiqat sualı formalaşdırılır: "Dramda hansı insani keyfiyyətlər əks olunmuşdur?". Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqatın aparılması:** Yeni məlumatların araşdırılması üçün şagirdlər kiçik qruplar şəklində bölünür. Bunun üçün müəllim şagirdləri 4 qrupa bölür və hər qrupa suallar əsasında müəyyən tapşırıqlar verir:

**1-ci qrup: Əsərin ideyasını müəyyənləşdirin;**

**2-ci qrup: Dramda verilmiş bədii təsvir vasitələrini müəyyənləşdirin;**

**3-cü qrup: Dramda verilmiş bədii ifadə vasitələrini müəyyənləşdirin;**

**4-cü qrup: Əsərin ideyasının daşıyıcı obrazlarının xarakterik xüsusiyyətlərini qeyd edin.**

**Məlumat mübadiləsi:** Qruplar tədqiqat apardıqdan sonra nəticələri təqdim edirlər. Obrazların təhlili ilə bağlı konseptual cədvəl üsulundan istifadə olunur. Bunun üçün lövhəyə cədvəl çəkilir, cədvəlin şaquli qrafasında müqayisə olunacaq obrazlar, üfüqi qrafasında isə onların müqayisə ediləcək xüsusiyyətləri yazılır.

| | Xarakteri | Müəllifin Səlma ana obrazına münasibəti | Şagirdlərin Səlma ana obrazına münasibəti |
|---|---|---|---|
| SƏLMA ANA | **Mərd**<br>**Məğrur**<br>**Qonaqpərvər**<br>**Xeyirxah** | **Nəcib**<br>**Alicənab**<br>**Vüqarlı**<br>**Əqidəli** | **Humanist**<br>**Murada qarşı insani keyfiyyətlər göstərir, lakin ədalətin bərpa olunması da vacibdir**<br>**Sözündə duran**<br>**Mərhəmətli** |

Şagirdlər təqdimatlarında obrazların dilindən verilmiş sözlərə, onların mənalarına diqqət yetirirlər.

**Məlumatın müzakirəsi və təşkili:** Müzakirə zamanı Səlma ananın oğlunun qatilinə qarşı olan xeyirxah münasibəti şagirdlərin müxtəlif fikirlər səsləndirməsinə səbəb olur. Bir qrup şagird ananın humanist, xeyirxah əməlinə haqq qazandırır. Şagirdlərin digər qismi isə ədalətin təmin olunması baxımından qatilin cəzalandırılmasını düzgün hesab edir. Bu zaman debat üsulundan istifadə oluna bilər. Müzakirə olunan məsələnin lehinə və əleyhinə fikirlər səsləndirilir. Burada məqsəd dəlillər vasitəsilə üçüncü tərəfi, yəni müəllimi fikrin doğruluğuna inandırmaqdır. Müəllim söylənilən mülahizələri, şagirdlərin fikirlərini dinləyib öz qərarını bildirir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə zamanı söylənilən fikirlər bu mərhələdə ümumiləşdirilir. Belə bir nəticə çıxarılır ki, əsərdə naqis əməlin yaxşılıq, xeyirxahlıq ilə aradan qaldırılmasına inam hissi ifadə olunmuşdur.

**Yaradıcı tətbiqetmə:** Yaradıcı iş zamanı şagirdlər Səlma ana obrazı ilə C.Məmmədquluzadənin "Anamın kitabı" əsərindəki Zəhrabəyim ana obrazının oxşar və fərqli cəhətlərini Venn diaqramından istifadə etməklə müqayisə edirlər.

**Qiymətləndirmə və refleksiya:** Müəyyən olunmuş meyarlar əsasında qiymətləndirmə aparılır. 4 qrup da bir-birini qarşılıqlı şəkildə qiymətləndirə bilər. Ev tapşırığı olaraq əsərin məzmunu ilə üst-üstə düşən atalar sözləri və ya məsəlləri araşdırıb yazmaq tapşırılır: "Anası namaz üstə imiş", "Ana haqqı, Tanrı haqqı", "Ana ürəyi, dağ çiçəyi", "Qanı qanla yumazlar". Son olaraq isə dərs müddətində öyrənilən yeni məlumatların refleksiyası həyata keçirilir.

İndi isə M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyasının orta ümumtəhsil məktəblərində necə tədris olunduğuna nəzər yetirək. Bu əsər 10-cu sinifdə tədris olunur və əsər üçün ayrılan dərs saatları, müəllim tərəfindən əvvəlcədən müəyyənləşdirilən təlim məqsədləri,mövzunun tədrisi forması metodik vəsaitdə qeyd olunur. Metodik vəsaitdə bu mövzuya dörd saat ayrılmış və hər saata uyğun təlim standartları qeyd

olunmuşdur. Şagirdlərin mövzunu daha dərindən və əhatəli şəkildə öyrənməsi üçün birinci və ikinci saatlar əsərin məzmununun öyrənilməsinə, üçüncü saat təhlil üzrə işə, dördüncü saat isə əsər üzərində yaradıcı tətbiqetməyə, əsərin müzakirəsinə həsr olunmuşdur. Qeyd etdik ki, mövzunun tədrisinə ayrılan ilk dərs saatı əsərin məzmununun mənimsədilməsi xarakteri daşıyır və müəllim mövzunu tədris edərkən təlim standartlarını əvvəlcədən müəyyənləşdirməlidir. Nəzərdə tutulan standartlar aşağıdakılardır:

- Şagirdlərin komediyada ilk dəfə rast gəldikləri, onlara tanış olmayan və mənası çətinliklə başa düşülən sözləri izah etməsi;
- Şagirdlər tərəfindən əsərdə məcazi mənada işlənən söz və ifadələrin, bədii ifadə və təsvir vasitələrinin, onların işlənmə məqamının müəyyən edilməsi.

Dərsə ayrılan birinci saatda əsərin məzmununun mənimsədilməsi zamanı müəllim dərsin təşkili prosesinə diqqət yetirməli və fəal dərsin mərhələlərini düzgün şəkildə qurmalıdır. Fəal dərsin bünövrəsini təşkil edən ilkin mərhələ motivasiya mərhələsidir. Motivasiya mərhələsi digər mərhələlərin səmərəli təşkili üçün zəmin rolunu oynayır, eyni zamanda şagirdlərin maraq və diqqətinin dərsə yönəlməsinə şərait yaradır. Müəllim bu mərhələnin təşkilini uğurla həyata keçirmək və şagirdlərdə dərsə qarşı maraq oyatmaq üçün "Dərviş Parisi partladır" filmində Dərviş Məstəli şahın köməkçisi Qulaməli ilə birlikdə barıt qoyub "Parisi partlatdığı" səhnədən bir fraqment nümayiş etdirir. Burada Məstəli şahın dilindən verilən mətn parçasına nəzər salaq: "Bəli, Paris şəhəri Əqrəb bürcünün altında vaqe imiş, əməl tamamdır. Bu bürcün təsirindədir ki, bu şəhərdən heç vaxt bəla əskik olmaz... *(Sonra qalxır ayağa, əlində bir dəyənək, üzün Şəhrəbanu xanıma və qızına tutub)* Xanımlar, qorxmuyun, ürəyinizi bərkidin! *(Sonra gözlərin çevirir, surətin heybətli edir, bu məntəri oxuyur. Sağına-soluna üfürür, heybətli səs ilə divləri, ifritələri adları ilə çağırır, buyuruq verir).* Ya Məlixa, ya Səlixa, ya Bəlixa! Qaldırın Parisi yerindən, vurun yerə, bu saatda necə ki mən bu heykəli vurub zirü zəbər edirəm. *(Bir qədəm geri çəkilir, dəyənək ilə cızığa üz qoyub içindəki taxtaparalardan yapılmış balaca evlərin və otaqların əşkalını çırpıb darbadağın dağıdır, sonra bir ləmhə dayanıb üzün*

*Şəhrəbanu xanıma tutur).* Xanım, gözünüz aydın olsun, Paris dağıldı! Razı oldunuzmu?” [1, s.133). Həmin səhnədən olan fraqmenti nümayiş etdirərək şagirdlərə müxtəlif suallarla müraciət edə bilər:

- ✓ İzlədiyiniz bu fraqmentdə söhbət nədən gedir?
- ✓ Bu səhnə haqqında fikirləriniz nədir?
- ✓ Bu film hansı komediyanın motivləri əsasında çəkilmişdir?

Müzakirələr əsasında yazıçının əsərdə qadın obrazlarının timsalında ictimai geriliyin, cəhalətin, Dərviş Məstəli şah və onun şagirdinin timsalında isə yalançı dərvişlərin naqis əməllərini ifşa etdiyi məlum olur. Eyni zamanda keçmiş mövzularla da inteqrasiya yaratmaq olar. Məsələn, S.Ə.Şirvaninin 8-ci sinifdə keçirilən “Qafqaz müsəlmanlarına xitab” əsərini şagirdlərə xatırlatmaq olar:

“Dərdimizdir bu dərdi-nadanlıq
Ki, tutubdur bizi pərişanlıq.

Qeyrilər etdilər tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam.

Hər vilayətdə var beş-on kəsəbə,
Əlli min seyyidü axund, tələbə.

Əlli dərviş, əlli mərsiyəxan,
Hamının sözləri tamam yalan.

Əlli min suxtə, əlli min sail,
Əlli min hoqqabazi-naqabil.

Hamının fikri xalqı soymaqdır,
Quru yerdə bu xalqı qoymaqdır.”[3, s.86)

Bu əsərdə də tərəqqinin olmamasının, avamlığın, cəhalətin əsas səbəbinin elmsizlik olduğu, yalançı axundların, dərvişlərin çirkin əməllərinin ifşa edildiyi şagirdlərin diqqətinə çatdırılır. Beləliklə, şagirdlərlə müzakirə aparmaq və növbəti mərhələ üçün tədqiqat sualını formalaşdırmaq mümkün olur. Tədqiqat sualı

müəyyənləşdirildikdən sonra motivasiya mərhələsi başa çatır və tədqiqatın aparılması mərhələsinə keçid yaranır. Tədqiqat sualı olaraq “Yazıçı əsərdə hansı ideyaları təbliğ edir və nələri tənqid edir?” sualı soruşula bilər. Dərsə ayrılan birinci saatda ilkin olaraq əsərin birinci və ikinci məclisləri tədqiqata cəlb olunur. Bu parçaların şagirdlər tərəfindən oxusu ilə tədqiqatın aparılmasına başlanılır. Məsləhət görülür ki, şagirdlər əsərin oxusunu onun janrına uyğun olaraq rollar üzrə bölüşdürməklə həyata keçirsinlər. Şagirdlər kiçik qruplarda birləşərək verilmiş parçaların məzmunu və oxu zamanı ilk dəfə qarşılaşdıqları sözlərlə, ifadələrlə bağlı tədqiqatlar apardıqdan sonra onlarda fikir formalaşır və aşağıdakı suallarla birlikdə təqdimata hazırlaşırlar:

- ✓ Şərəfnisə xanım nə üçün ağlayırdı?
- ✓ Şahbaz bəyin Parisə getməsinə kimlər mənfi və kimlər müsbət münasibət göstərdilər?
- ✓ Şahbaz bəyin Parisə getməkdə məqsədi nə idi?

Daha sonra şagirdlərin təqdimatları əsasında məlumat mübadiləsi aparılır. Şagirdlər əsərin birinci və ikinci məclislərindən oxuduqları parçalar əsasında fikir mübadiləsinə başlayırlar. Məsələn, Şahbaz bəyin timsalında gənclərin təhsil almaq üçün məhz xaricə üz tutmalarının səbəbləri haqda müxtəlif fikirlər səsləndirilir. Müəllim istiqamətləndirici suallardan istifadə edir ki, bununla da təqdimatlar dinlənilir və müzakirə səmərəli keçir. Əsərin ikinci məclisində Hatəmxan ağa ilə Şahbaz bəy arasındakı dialoqda həm Azərbaycan xalqının, həm də firənglərin özünəməxsus fərqli milli dəyərlərinin üzə çıxması müzakirəyə cəlb olunur. Məsələn, Hatəmxan ağanın Şahbaza söylədiklərinə nəzər salaq: “*Bu saatda mən sənə qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Paris əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar; biz papaqlı otururıq, onlar başı açıq oturarlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizlin alırlar, biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas.*” [1, s.128). Beləliklə, komediyanın birinci və ikinci

məclislərinin oxusu ilə bağlı işə yekun vurulur. Növbəti saatda əsərin üçüncü və dördüncü məclislərinin məzmunu öyrənildikdən sonra nəticə çıxarılır, ümumiləşdirmələr aparılır. Fəal dərsin sonuncu mərhələsi sayılan qiymətləndirmə əvvəlcədən müəyyən edilmiş izahetmə və müəyyənləşdirmə meyarları əsasında aparılır və formativ qiymətləndirməyə uyğun təşkil edilir. Qiymətləndirmə meyarları dörd səviyyədə özünü göstərir:

- 1-ci səviyyədə şagirdlər onlara tanış olmayan söz və ifadələrin mənasını izah etməkdə və əsərin müxtəlif parçalarında verilmiş məcazları müəyyənləşdirməkdə çətinlik çəkirlər;
- 2-ci səviyyədə şagirdlər onlara tanış olmayan söz və ifadələrin mənasını, əsərdə verilmiş məcazları kömək vasitəsilə izah edirlər;
- 3-cü səviyyədə onlara tanış olmayan sözlərin mənasını və məcazları nisbətən yaxşı izah edirlər;
- 4-cü səviyyədə onlara tanış olmayan sözlərin mənasını artıq sərbəst şəkildə izah edirlər; komediyada verilmiş məcazları müəyyənləşdirirlər.

Dərsin sonunda müəllim ev tapşırığı olaraq şagirdlərə əsərin üçüncü və dördüncü məclislərini oxumağı, eyni zamanda "Ədəbiyyat nəzəriyyəsi" kitabından komediya, yumor, satira haqqında məlumat öyrənməyi tapşırır.

Mövzunun tədrisinə ayrılmış ikinci saatda əsərin üçüncü və dördüncü məclislərinin məzmunu üzrə iş aparılır. Burada da müəllim təlim məqsədlərini əvvəlcədən müəyyənləşdirir və bu təlim standartları metodik vəsaitdə aşağıdakı kimi qeyd olunur:

- Komediyada tanış olmayan söz və ifadələrin mənşəyi, harda və necə işlənməsi baxımından şagirdlər tərəfindən izah edilməsi;
- Əsərdə yazıçının oxucuya çatdırmaq istədiyi mənəvi-əxlaqi dəyərlərin müəyyənləşdirilməsi;
- Məcazi mənalı sözlərin, bədii təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, metafor və s.) şagirdlər tərəfindən müəyyən edilməsi.

Dərsə ayrılan ikinci saatın tədrisinə ev tapşırıqlarının yoxlanılması ilə başlanılır. Müəllim komediya, yumor, satira haqda şagirdlərlə yığcam müsahibə aparır, əvvəlki məclislərdə şagirdlərə qaranlıq qalan məqamlar varsa, onları aydınlaşdırır. Bununla bərabər, şagirdlərin əsərin üçüncü və dördüncü məclislərini oxuduqları zaman tanış olmayan sözləri hansı səviyyədə başa düşmələri müəyyən olunur. Şagirdlər kiçik qruplar şəklində birləşərək evdə oxuduqları məclislərin məzmunu, orda cərəyan edən hadisələr, obrazların dilində verilən söz və ifadələr haqda təəssüratlarını bütün siniflə bölüşürlər. Daha sonra dərslikdə verildiyi kimi gəldikləri nəticələri dəqiqləşdirmək məqsədilə təqdimatlar hazırlayırlar və təqdimatlar əsasında fikir mübadiləsi aparır, müzakirələrdə fəal iştirak edirlər. Müzakirə zamanı aşağıda verilən suallardan istifadə oluna bilər:

- ✓ Şahbaz bəyin Parisə getməyinə mane olmaq üçün hansı tədbirlər görüldü?
- ✓ Dərviş Məstəli şahın "Parisi partlatma"sı ilə Müsyö Jordanın Parisin dağılması xəbərini gətirməsinin üst-üstə düşməsini necə izah edə bilərsiniz?
- ✓ Əsərdə hansı mənəvi dəyərlərimiz önə çəkilir?
- ✓ M.F.Axundzadənin əsərlərinin aktuallığının səbəbi nədir?

Qrupların təqdimatları dinlənilir və bunlar əsasında qarşılıqlı fikir mübadiləsi aparılır, şagirdlərin fərziyyələri də müzakirə olunur. Müzakirədə bütün sinfin fəal iştirakı təmin olunur. Bunun üçün müəllim mövzu ilə əlaqəli dərslikdə olan materiallarla şagirdlərin öz fərziyyələrini qarşılaşdırır, iş vərəqlərində şagirdlərə açıq suallar təqdim olunur, beləliklə, ortaya maraqlı diskussiya çıxır. Nəticənin çıxarılması hissəsində müzakirələr haqda ümumiləşdirmə aparılır, müəllim istiqamətləndirici suallardan istifadə edərək şagirdlərin fikirlərini dinləyir. Müəllim əsərdə aşılanan milli-mənəvi dəyərlərimiz haqda öz əlavələrini də edə bilər. Sonda metodik vəsaitdə müəyyənləşdirilmiş meyarlar əsasında dörd səviyyə üzrə formativ qiymətləndirmə aparılır. Şagird əsərdə ona tanış olmayan sözlərin mənasını izah etməkdə, komediyada əks olunan əxlaqi dəyərləri müəyyənləşdirməkdə, məcazi mənalı söz və ifadələri izah etməkdə çətinlik çəkirsə I səviyyə, bu sadalananları müəllimin və yoldaşlarının köməyi ilə müəyyən edirsə II səviyyə, qeyd olunanları kömək olmadan,

müstəqil şəkildə yerinə yetirirsə III və IV səviyyə üzrə qiymətləndirilir. Müəllim ev tapşırığı olaraq şagirdlərə əsəri ətraflı şəkildə öyrənməyi və yığcam formada danışmağı tapşırır.

Əsərin təhlili üzrə iş isə mövzunun tədrisinə ayrılan üçüncü saatı təşkil edir. Müəllim dərsə xidmət edən aşağıdakı təlim standartlarını müəyyənləşdirməlidir:

- Şagirdlər komediyada iştirak edən obrazları müəyyən xüsusiyyətlərinə görə təhlil edir;
- Əsərin ideya-məzmun xüsusiyyətlərini, mövzusunu dövrün baxış bucağı çərçivəsindən təhlil edir və nəticələr çıxarır;
- Şagirdlər tərəfindən əsərlə bağlı müzakirələrdə səslənən fikirlər dinlənilir, məsələyə tənqidi münasibət əsaslandırılır.

İlkin olaraq müəllim tərəfindən ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi müəyyənləşdirilir. Şagirdlərin əsərdə baş verən hadisələri doğru ardıcıllıqla izah etməsinə diqqət yetirilir. Motivasiya mərhələsində müəllim M.F.Axundzadənin maarifçilik ideyaları haqda məlumatları şagirdlərin nəzərinə çatdırır, obrazların xarakterini açan nümunələr gətirir. Yığcam müsahibə aparıldıqdan sonra tədqiqat sualı formalaşdırılır. Tədqiqat sualı olaraq "Müəllif əsərin adına uyğun olaraq Müsyö Jordan və Dərviş Məstəli şah obrazlarını nə üçün qarşılaşdırır?". Müxtəlif fərziyyələr dinlənilir, qeydlər aparılır. Tədqiqat işinə dərslikdəki dörd sualın qarşısında verilən cavabların oxusu ilə başlanılır. Hər bir sualı və cavabını şagirdlərin fərdi şəkildə oxuması məqsədəuyğundur. Həmçinin mətni oxumazdan əvvəl şagirdlər əsərin məzmunu ilə bağlı öyrəndikləri məlumatlarla inteqrasiya apararaq mətni daha yaxşı mənimsəyə bilərlər. Tədqiqata başlayarkən dərslikdə verilən dörd suala uyğun olaraq müəllim şagirdləri dörd qrupa bölür və hər qrup bir sualın cavabını araşdırır. Qrupların adlarını şagirdlər özləri müəyyənləşdirir. Nəticədə "Vətən", "Qarabağ", "Dərviş" və "Maarif" qrupları yaranır, qrup liderləri seçilir. Qruplar müzakirə xəritəsi, debat, diskussiya kimi təlim üsullarından istifadə edərək mövzu üzrə faktları araşdırır, təhlilə cəlb edirlər. Əsərin təhlili ilə bağlı dərslikdə qoyulan ilk sual

komediyanın hansı mövzuda yazılması ilə əlaqədardır. Əsərin məclislərinin oxusundan anlaşıldığı kimi dramaturq burada mədəni-ictimai geriliyi, avamlığı, cəhaləti tənqid etmiş, gənc nəsli təhsil almağa, elmə səsləmişdir. Eyni zamanda şagirdlər əsərin oxusunu nəzərdən keçirərkən bu məqamlara diqqət etməlidirlər. İkinci sual əsərdəki obrazların xarakteri, davranışları ilə əlaqədardır. Bu sualın cavabını araşdıran qrup üzvləri və qrup lideri əsər əsasında çəkilmiş "Dərviş Parisi partladır" filmindən də bəhrələnə bilər. Satirik gülüş hədəfinə çevrilən Məstəli şah və şagirdi Qulaməlinin Qarabağa gələrkən zümzümə etdikləri mahnı əsnasında onların necə xarakterə malik olduqlarını öz dillərindən eşidirik. Mirzə Babayevin ifasında səsləndirilən və Məstəli şahın dilindən verilən həmin mahnıya nəzər salaq:

*"Mən bir köhnə dərvişəm, cəhənnəmdən gəlmişəm.*

*Zəmanəni dolayıb barmağıma sərmişəm*

*Mən bir köhnə dərvişəm, çox sifətlər görmüşəm.*

*Doğru sözə həmişə rişxənd edib gülmüşəm"*[12)

Bu mahnıda onun necə fırıldaqçı və yalançı biri olduğunu anlayırıq. Dramaturq Müsyö Jordanın simasında elm, mədəniyyət, tərəqqi, yenilik, müasirlik kimi anlayışları və zəngin insani keyfiyyətləri özündə birləşdirən bir obraz yaratmışdır. Əsərdəki konflikt yeniliyi təmsil edən Müsyö Jordan və onun əksinə olaraq köhnəliyin təmsilçisi Dərviş Məstəli şah arasındadır. Bu iki əks qütb müəllifin əsərdəki  əsas ideyanı oxucuya çatdırmasında mühüm rol oynayır. Əsərdə digər bir obraz da Şahbaz bəydir ki, yazıçı onun timsalında təhsil almaq arzusunda olan, yeni həyatla uyğunlaşmaq istəyən və inkişafa can atan gənclərin obrazını yaratmışdır. Təhlilə cəlb olunan maraqlı obrazlardan biri də Hatəmxan ağadır.O,əsl Azərbaycan bəylərinə yaraşan insani keyfiyyətləri, qonaqpərvərliyi, mülayim rəftarı ilə seçilir. Onun əvvəlcə Şahbaz bəyin Müsyö Jordanla getməyinə mane olması, daha sonra razılıq verməsi təhlil olunacaq məqamlardandır. Komediyada gülüş hədəfinə çevrilən qadın obrazları – Şəhrəbanu xanım, Şərəfnisə xanım və Xanpəri avam, cadu-tilsimə inanan, sadəlövh xüsusiyyətləri ilə yanaşı qonaqpərvər, açıqürəkli olmaları, saf,

mənəvi keyfiyyətləri ilə də seçilir. Şərəfnisə xanım sevdiyinə görə nişanlısı Şahbaz bəyi qısqandığı üçün, Şəhrəbanu xanım isə qızının göz yaşlarına, ağlamağına dözə bilmədiyi üçün Şahbaz bəyin Parisə getməyini istəmirlər və ona görə də bir tədbir görmək qərarına gəlib Məstəli şahı çağırırlar. Onlar Məstəli şahın cadularına aldanır və Parisin dağılacağına inanırlar. Eyni anda Fransada inqilab baş verir və Şahbaz bəy Parisə gedə bilmir. Beləliklə, qadınların aldandıqlarının fərqinə varmamaları, Məstəli şahın cadusu nəticəsində Parisin dağıldığına inanmaları komediyanın gülüş doğuran hissəsini təşkil edir. Müəllim təhlil zamanı xüsusi olaraq bu hissələrin şagirdlər tərəfindən düzgün anlaşılmasına vasitəçi olmalıdır. Növbəti sual əsərin diqqət çəkən bədii xüsusiyyətləri, süjet və kompozisiyası barədədir. Şagirdlər əsərin hansı inkişaf mərhələləri ilə irəlilədiyini sxemlər vasitəsilə göstərməli, əsərin ekspozisiya, zavyazka, kulminasiya, razvyazka, final mərhələlərinə uyğun əsərdən nümunələr gətirməlidirlər. Şagirdlər üçün maraq və əyləncə doğuran səhnə əsərin kulminasiya mərhələsi sayılan Dərvişin Parisi partlatması səhnəsidir. Onlar bu barədə fikir və mülahizələrini bildirirlər. Qeyd edək ki, əsərin ideya-sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi onun bədii dilindən, milli koloritindən asılıdır. Əsərin bədii dil xüsusiyyətlərinin öyrənilməsi orada tanış olmayan söz və ifadələrin izahı ilə məhdudlaşmamalı, obrazların nitqini, düşüncələrini, daxili aləmini səciyyələndirən söz və ifadələrin mənası müəyyənləşdirilməlidir. Dramaturq hər bir obrazı öz xarakterinə, milli mənsubiyyətinə uyğun söz və ifadələrlə danışdırmışdır. İstər Müsyö Jordanın xaricilərə məxsus danışıq tərzi, Məstəli şahın nitqində özünəməxsus ərəb-fars sözlərinin işlənməsi, istərsə də, Hatəmxan ağa, Şəhrəbanu xanım, Xanpəri və digər obrazların dilindəki canlı xalq danışıq dilinə məxsus milli kolorit əsərdə müəyyən mənada şirinlik yaradır. Müəllim söz assosiasiaları, klaster üsulundan istifadə etməklə şagirdlərin lüğət ehtiyatının artmasına və əsərdəki ifadələri daha yaxşı mənimsəmələrinə kömək edə bilər. Dərslikdəki sonuncu sual əsərin ideyasının əsasında hansı fikirlərin dayanmasıdır. Əsərin məzmunu ilə tanış olmuş şagirdlər anlayır ki, dramaturq köhnəliklə yenilik arasındakı mübarizəni qarşılaşdırmış və cəmiyyətin köhnəlik zəncirlərinin əsarətindən çıxıb maarifçi ruhla yenilənmiş həyat tərzinə qovuşacağına dair inam hissini ifadə etmişdir.

Sonra qrup üzvlərinin təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır, diqqəti cəlb edən məsələlər üzrə diskussiya aparılır. Nəticələrin çıxarılması mərhələsində müəllimin yönəldici sualları nəticəsində aydın olmayan məsələlər təkrar izah olunur, ümumiləşdirmələr aparılır. Metodik vəsaitdə qeyd olunmuş meyarlara əsasən, şagirdlərin bilik və bacarıq səviyyələrinə uyğun qiymətləndirmə aparılır. Müəllim qiymətləndirmə zamanı şagirdlərin bütün dərs boyu fəaliyyətini nəzərə almalıdır. Sonda dərslikdə verilmiş ev tapşırığının yerinə yetirilməsi şagirdlərin diqqətinə çatdırılır.

Əsərə ayrılan dördüncü saat əsər üzərində tətbiq, müzakirə və yaradıcı işə həsr olunmuşdur. Müəllim metodik vəsaitdə qeyd olunmuş təlim standartlarının reallaşmasına nəzarət edir. Ev tapşırığı yoxlanıldıqdan və anlaşılmayan məsələlərin izahı verildikdən sonra yaradıcı iş üzrə motivasiya qurulur. Yaradıcı iş şagirddən xüsusi qabiliyyət tələb edir, şagird əvvəlki üç dərs ərzində öyrəndiklərini yaradıcılıq potensialı ilə birləşdirərək tətbiq edir. İlk olaraq şagirdlərin aşağı siniflərdə müxtəlif mövzularda, hətta yay tətilindən qayıdarkən yazdıqları inşa, esse kimi yaradıcı iş nümunələri xatırlanır, yığcam müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır. Metodik vəsaitin tələbinə uyğun olaraq müqayisə tipli inşa ilə təsvir xarakterli esse arasındakı oxşar və fərqli xüsusiyyətlər müəyyənləşməsi tədqiqat sualı kimi ortaya qoyulur. Bu haqda şagirdlərin aşağı siniflərdən baza məlumatları olsa da, 10-cu sinif şagirdi fərqli və oxşar cəhətləri dərindən bilməlidir ki, tədqiqatı uğurlu alınsın, eyni zamanda öyrəndiyini tətbiq etməkdə çətinlik çəkməsin. Tədqiqatın aparılması mərhələsi yazı işlərinin yerinə yetirilməsi ilə davam edir. Müəllim yaradıcı işin giriş, əsas və nəticə hissələrində hansı məqamların nəzərə alınmasını şagirdlər üçün əvvəlcədən aydınlaşdırmalıdır. Şagirdlər əsərin qəhrəmanları, onlarda görmək istədikləri xüsusiyyətlər, onların bir-birlərinə qarşı münasibətlərini əks etdirən fərziyyəyə uyğun esse və ya inşa nümunəsi yazırlar, hər bir şagird istədiyi obrazı yaradıcı işə cəlb edə bilər. Vurğulamaq lazımdır ki, əsərdə hadisələr Qarabağ elində baş verdiyi üçün şagirdlər bu mövzunu da yaradıcı işlərində əsas götürə bilərlər. Onlar Qarabağın səfalı, füsunkar təbiəti, təsərrüfatı, Qarabağın məşhur atları,

insanlarının qonaqpərvərliyi haqqında inşa və ya esse yaza bilərlər. Şagirdlər yazılarını təqdim etdikdən sonra müzakirələr aparılır, ümumiləşdirmə və nəticənin çıxarılması üçün şərait yaradılır. Yazılar fərdi şəkildə metodik vəsaitdə qeyd olunmuş əsaslandırma, münasibətbildirmə, nəticəçıxarma, inşayazma esseyazma meyarlarına və şagirdlərin bilik-bacarıq səviyyələrinə uyğun qiymətləndirilir. Dərslikdəki ev tapşırığının yerinə yetirilməsi şagirdlərin nəzərinə çatdırılır.

## 2.2. XI sinifdə dram əsərlərinin tədrisi metodikası

Orta ümumtəhsil məktəblərində dram əsərlərinin bir qismi 11-ci sinifdə tədris olunur. 11-ci sinif ədəbiyyat dərsliyində C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası, H.Cavidin "İblis" faciəsi, C.Cabbarlının "Oqtay Eloğlu", S.Vurğunun "Vaqif" pyesləri, İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" kimi dram əsərləri tədris olunur. Tədris edilmə qaydasına nəzər salacağımız maraqlı dram əsərlərindən biri C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyasıdır. Metodik vəsaitdə bu mövzunun tədrisinə beş saat ayrılmışdır. Birinci və ikinci saat əsərin məzmununun tədrisinə, üçüncü və dördüncü saat təhlil üzrə işə, beşinci saat yaradıcı tətbiqetməyə ayrılmışdır. Gəlin, əsərin tədrisinə nəzər salaq.

**Mövzu:** C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinin məzmunu üzrə iş

**Standartlar:** 1.1.1; 1.1.3; 1.1.5.

**İnteqrasiya:** Həyat bilgisi

**İş üsulları:** oxu, müzakirə, təqdimat, diskussiya

**İş forması:** cütlüklə iş, kiçik qruplarda iş

**Resurslar:** dərslik, şəkillər, lüğətlər, "Anamın kitabı" teatr tamaşası

**Təlim nəticələri:** Tragikomediyadan hər hansı bir hissəni seçib yığcam şəkildə nağıl edir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

**Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması**: Müəllim sinfə daxil olarkən şagirdləri salamlayır. Davamiyyət yoxlanılır və ötən dərsin mövzusu ilə əlaqədar yığcam şəkildə sual-cavab olunur. Ev tapşırığı yoxlanıldıqdan sonra aydın olmayan məsələlərin izahı verilir və növbəti mövzuya keçid edilir.

**Motivasiya:** Bu mərhələyə keçid alan müəllim şagirdlərə belə müraciət edir: "Atalar "Güc birlikdədir", "Tək əldən səs çıxmaz" deyiblər. Sizcə, birlik olmağın faydaları nələrdir? Milli birlik, xalqın birliyi nədir və onu necə yaratmaq olar?". Şagirdlər kiçik qruplarda birləşərək fikirlərini, gəldikləri nəticələri siniflə bölüşdükdən sonra sualların cavabları müzakirə olunur. Bu cür motivasiyanın yaradılması tədqiqat sualının formalaşması üçün zəmin yaradır. Və ya "Anamın kitabı" teatr tamaşasından bir fraqment göstərilərək motivasiya yaratmaq mümkündür. Qısa şəkildə müsahibə aparıldıqdan sonra tədqiqat sualı müəyyənləşdirilir. "Milli dəyərlərimizə və ana dilinə qarşı yadlaşmaya səbəb nə ola bilər?". Şagirdlərin fikirləri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması:** Əvvəlcə əsərin bir hissəsinin rollar üzrə oxusu həyata keçirilir. Mətnioxuyan şagirdlərə suallar verilir. Sualların cavabları digərlərinə aydın olmursa, başqalarının cavabları dinlənilir. Mətnin mənimsənilməsi üçün ziqzaq

üsulundan da istifadə oluna bilər. Bunun üçün mətn hissələrə bölünür, nömrələnir. Bu zaman qrupdakı şagirdlər də 1-dən 4-ə qədər nömrələrlə işarə olunur. Daha sonra eyni nömrəli şagirdlər bir qrup şəklində birləşib parta arxasında əyləşirlər, mətnin bir hissəsini oxumağa başlayırlar. Məsələn, 1-1-1-1; 2-2-2-2; 3-3-3-3; 4-4-4-4. Mətnin bir hissəsini 1-ci, digər hissələrini 2-ci, 3-cü və 4-cü qruplar oxuyur. Hər qupdan bir nəfər mətnin məzmununu digər yoldaşlarına danışır. Beləliklə, mətn tam formada bütün sinfə aydın olur.

**Məlumat mübadiləsi:** Bu mərhələdə şagirdlər mətndə obrazların dilindən verilən, mənası çətin anlaşılan sözləri aydınlaşdırırlar və əldə etdikləri məlumatları yoldaşları ilə bölüşürlər. Bu, həm də şagirdlər arasında əməkdaşlıq prinsipinin qorunmasına şərait yaradır.

**Məlumatın müzakirəsi və təşkili:** Müzakirə əsərdəki hissələrin oxunub aydınlaşdırılması ilə davam etdirilir. Bu zaman övladlarının Zəhrabəyim anaya olan münasibəti fonunda valideyn-övlad münasibətləri müzakirə oluna bilər. Bunun üçün müzakirə üsulundan istifadə olunur. Təqdimatlar dinlənilir və müzakirəyə çıxarılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələdə dərs boyu səsləndirilən fikirlər ümumiləşdirilir və yekun nəticə çıxarılır. Şagirdlər öz münasibətlərini bildirə bilərlər.

**Yaradıcı tətbiqetmə:** Oxunulan mətnin məzmununu qısa şəkildə danışmaq tələb edilir.

**Qiymətləndirmə və refleksiya:** Şagirdlər tragikomediyada əks olunan məcazi mənalı söz və ifadələri izah etməkdə çətinlik çəkirsə I səviyyə, bu sadalananları müəllimin və yoldaşlarının köməyi ilə müəyyən edirsə II səviyyə, qeyd olunanları kömək olmadan, müstəqil şəkildə yerinə yetirirsə III və IV səviyyə üzrə qiymətləndirilir. Əldə olunmuş yeni biliklərin refleksiyası həyata keçirilir. Son olaraq dərslikdə qeyd olunmuş ev tapşırığı verilir. Tanış olmayan sözlərin mənasını araşdırıb tapmaq və həmin sözləri mənşəyinə görə qruplaşdırmaq tapşırılır. Bununla bərabər sonrakı məclislərin evdə oxusu tapşırıq olaraq verilir.

“Anamın kitabı” tragikomediyasının tədrisinə ayrılmış ikinci saat əsərin ikinci və üçüncü məclislərinin məzmunun mənimsədilməsinə yönəlmişdir.

**Mövzu:** C.Məmmədquluzadənin “Anamın kitabı” əsərinin məzmunu üzrə iş

**Standartlar:** 1.1.1; 1.1.3; 1.1.4; 1.1.5.

**İnteqrasiya:** Azərbaycan dili, həyat bilgisi

**İş üsulları:** oxu, müzakirə, təqdimat

**İş forması:** cütlüklərlə iş, kiçik və böyük qruplarda iş

**Resurslar:** dərslik, iş vərəqləri, lüğət, elektron vəsaitlər

**Təlim nəticələri:** Əsərin hər hansı bir hissəni seçib yığcam şəkildə nağıl edir; Əsərdə ifadə olunmuş milli-mənəvi dəyərləri müəyyənləşdirir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

Sinfə daxil olarkən şagirdləri salamlayırıq. Davamiyyət yoxlanıldıqdan sonra ev tapşırıqlarının hansı səviyyədə yerinə yetirilməsi aşkarlanır. Keçən dərsdə verilmiş ev tapşırığı ilə bağlı müəllim şagirdlərə müraciət edir:

- Sizə tanış olmayan sözlər hansılar idi?
- Bu sözləri mənşəyinə görə necə qruplaşdırdınız?

Şagirdlər sualları cavablandırdıqdan sonra aydın olmayan məqamlar müəllim tərəfindən izah edilir. Müəllim əsərin sonrakı məclislərinin oxusunu həyata keçirən şagirdlərə aşağıdakı suallarla müraciət edir:

- Cəmiyyəti-xeyriyyənin iclasında baş verən hadisələri necə xarakterizə edərdiniz?
- İclasda müzakirə olunan məsələlər nələrdən ibarətdir?
- Sizcə, həmin iclasda gündəliyə daxil olan məsələlər insanlar üçün əhəmiyyətli idi?
- Siz iclasda müzakirə olunan məsələlərin həllini necə reallaşdırardınız?
- Ehtiyac içərisində olan sadə insanların problemi ədalətli şəkildə həll olundu yoxsa necə?
- Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahid haqqında hansı fikirlər səsləndirildi?
- Oxusunu həyata keçirdiyiniz əsərdə hansı milli-mənəvi dəyərlərdən söhbət açmaq olar?

Şagirdlər bu suallar nəticəsində bir növ beyin fırtınası yaşamış olurlar. Həm əsərin məclislərində cərəyan edən hadisələri yadlarına salırlar, həm də hadisələrə öz prizmalarından yanaşırlar.

Daha sonra kiçik qruplar yaradılır və fikir mübadiləsi aparılaraq sualların cavablarını dəqiqləşdirməyə səy göstərilir. Təqdimatlar dinlənildikdən sonra müzakirə aparılır. Bu ailənin bəzi üzvlərinin öz milli-mənəvi keyfiyyətlərindən, dəyərlərindən uzaqlaşması, özlərini fərli mədəniyyətlərin üzvləri kimi göstərmələri müzakirənin əsas mövzusuna çevrilir. Müzakirənin sonunda ümumiləşdirmə aparılır və nəticə

çıxarılır. Qiymətləndirmə müəyyən olunmuş meyarlar və səviyyələr əsasında aparılır. Sonra dərsdə qazanılan məlumatlar ümumi şəkildə xatırlanır. Ev tapşırığı olaraq dördüncü məclisin oxusu tapşırılır. Qardaşların davranışı, danışıq üslubu, xarakteri haqqında “klaster” və ya “xarakterlər xəritəsi” üsulundan istifadə etməklə fikirlərin qeyd olunması tapşırılır.

Əsərin tədrisi üçün ayrılmış üçüncü saat təhlil üzrə işə, obrazların səciyyələndirilməsinə xidmət edir.

**Mövzu:** C.Məmmədquluzadənin “Anamın kitabı” əsərinin təhlili üzrə iş

**Standartlar:** 1.2.1; 1.2.4; 2.1.2.

**İnteqrasiya:** Azərbaycan dili, həyat bilgisi

**İş üsulları:** oxu, müsahibə, müzakirə, problemin həlli, diskussiya

**İş forması:** kişik və böyük qruplarda iş, cütlərlə iş

**Resurslar:** əsərin məzmununa uyğun şəkillər, dərslik, C.Məmmədquluzadənin əsərləri

**Təlim nəticələri:** Əsəri dil və üslub baxımından təhlil edir; Əsərin mövzusuna, ideyasına, əsərdə dövrlə əlaqəli cərəyan edən hadisələrə münasibət bildirir; Əsərdə yazıçının məqsədini faktlarla aydınlaşdırır.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

**Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması:** Müəllim sinfə daxil olaraq şagirdləri salamlayır. Əsərin məzmunu üzrə iş yekunlaşdırıldığına görə ev tapşırıqlarının yoxlanılması biraz vaxt tələb edir. İlk olaraq şagidlərin əsərin dördüncü məclisini necə anladıqları yoxlanılır. Şagirdlər "Xarakterlər xəritəsi" üsulundan istifadə edərək qardaşların xarakterini səciyyələndiriblər. Bu məsələ nəzərdən keçirilir. Tragikomediyada mənası aydın olmayan sözlər haqqında şagirdlərə izahlar verilir. Əsərin dördüncü məclisində milli-mənəvi dəyərlərə laqeyd yanaşılmasına diqqət yetirilir. Müəllim yönəldici suallardan istifadə edərək sinfə müraciət edir və belə bir nəticəyə gəlinir ki, keçmişini unudan, milli dəyərlərinə, ana dilinə, valideynlərinə, xalqına etinasız yanaşan insanlar hər zaman məğlubdur.

**Motivasiya:** Müəllim bu mərhələni istiqamətləndirici suallar verməklə qura bilər. "Eyni ailədə böyüyən, tərbiyə alan qardaşlarla Gülbahar arasındakı fərqin səbəbi nədir?" sualının verilməsi ilə qısa şəkildə müsahibə aparılır və belə bir tədqiqat sualı formalaşır: "Əsər tragikomediya janrındadır. Bəs sizcə, əsərdə qardaşların düşdükləri vəziyyət onların komediyası yoxsa faciəsi sayılır?". Şagirdlər tərəfindən səsləndirilən müxtəlif fərziyyələr dinlənilir.

**Tədqiqatın aparılması:** Araşdırmaya dərslikdə verilmiş mətnin kənarlarındakı sualları müstəqil şəkildə cavablandırmaqla başlanılır. Həmin suallar bunlardır:

- "Anamın kitabı" tragikomediyasının mövzusu nədir?
- Əsərdə hansı milli-mənəvi dəyərlərimiz əks olunmuşdur?
- Qardaşların bir-birilə fərqli və oxşar cəhətləri nələrdir?

Hərkəs səssiz şəkildə oxuya başlayır. Daha sonra şagirdlər kiçik qruplar halında birləşərək fikirlərini bölüşürlər.

**Məlumat mübadiləsi:** Bu mərhələdə mətnin kənarlarındakı suallar ətrafında fikir mübadiləsi davam edir. Şagirdlər həmin sualları cavablandırmaq üçün əsərin məzmununu bilməklə yanaşı, əlavə araşdırmalar da etməlidirlər. Əlavə nəzəri məlumatlar toplanılmasına ehtiyac hiss olunur.

**Məlumatın müzakirəsi və təşkili:** Bu mərhələdə obrazların təhlilini həyata keçirmək üçün cədvəl qurulur. Cədvəl dörd sətir və dörd sütundan ibarət olur. Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd vahid və Gülbahar obrazları təhlilə cəlb olunur.

| RÜSTƏM BƏY | MİRZƏ MƏHƏMMƏDƏLİ | SƏMƏD VAHİD | GÜLBAHAR |
|---|---|---|---|
| Rusiyada təhsil almışdır<br>İntelligent<br>Zahiri görkəmcə<br>Demokrat fikirli, təmkinli görünür, amma bunun tam əksidir | İranda təhsil almışdır<br>Elmi-ilahi müəllimi<br>Kobuddur<br>Tünd xasiyyətlidir<br>Dəhşətli dərəcədə mühafizəkardır | Türkiyədə təhsil almışdır<br>Türk dili müəllimi<br>Mülayim təbiətli insan təsiri bağışlayır, lakin inadkarlığı var | Ailənin sonbeşiyidir<br>Ağıllıdır<br>Anasının halına yanır<br>Qardaşlarının doğru yolda olmadıqlarını anlayır |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Əsərin və obrazların təhlili ilə bağlı fikirlər ümumiləşdirilir və nəticə çıxarılır.

**Yaradıcı tətbiqetmə:** Bu zaman şagirdlər əsərdən seçdikləri hər hansı bir obrazı şifahi şəkildə xarakterizə edirlər.

**Qiymətləndirmə və refleksiya:** Müəyyən olunmuş qiymətləndirmə meyarları və səviyyələri əsasında formativ qiymətləndirmə aparılır. Refleksiya mərhələsində ümumi təkrar aparılır. Ev tapşırığı olaraq şagirdlərə dərsdə öyrəndikləri məlumatlarla yanaşı, yenə araşdırma etmələri və əvvəlki məlumatlarla yeni əldə etdikləri məlumatları müqayisə etmələri tapşırılır.

Dördüncü saat da əsərin təhlili üzrə işə ayrılmışdır.

**Mövzu:** C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinin təhlili üzrə iş

**Standartlar:** 1.2.1; 1.2.2; 1.2.3; 1.2.4.

**İnteqrasiya:** Həyat bilgisi, Azərbaycan dili

**İş üsulları:** oxu, müsahibə, diskussiya, Venn diaqramı

**İş forması:** kiçik qruplarda iş

**Resurslar:** dərslik, şəkillər, lüğətlər, elektron vəsait

**Təlim nəticələri:** Əsəri dil-üslub və kompozisiya baxımından təhlil edir; Əsərdəki obrazları xarakterizə edir və müqayisələr aparır; Bədii təsvir və ifadə vasitələrini, məcazları obrazlara uyğun şəkildə əsaslandıraraq münasibət bildirir; Əsərin mövzu və ideyasına milli-mənəvi dəyərlər kontekstindən yanaşaraq münasibət bildirir.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

İlk olaraq şagidlər salamlanır, davamiyyət yoxlanılır. Daha sonra ev tapşırığının yoxlanılmasına və mövzuya aid aydın olmayan məsələlərin izahına vaxt ayrılır. Şagidlərə yönəldici suallar verilərək onların obrazlar haqqında fikirləri öyrənilir. Bunun üçün beş qrup yaradılır. Hər qrupa fərqli suallarla müraciət olunur. Qruplar aşağıdakı tapşırıqları yerinə yetirirlər:

- Mətnin kənarında verilmiş sualda əsərdəki digər obrazların xarakterik xüsusiyyətləri soruşulur. Həmin sualı oxuyun və cavablandırın.
- Əsərdə verilmiş əsas fikirləri ümumiləşdirib çıxardığınız nəticəni təqdim edin.
- Əsərin bədii xüsusiyyətlərinin qabarıq olduğu hissələri şərh edin.
- Çətin başa düşülən ifadələri qeyd edin və müzakirə aparın.
- Əsərdə seçdiyiniz epizodik obrazların xüsusiyyətlərini qeyd edin.

Bu cür tapşırıqlar təqdimatlar nəticəsində dinlənildikdən sonra fikir mübadiləsi aparılır. Şagirdlər sualları cavabladıqdan sonra yoldaşları onların fikrinə münasibət bildirir və əlavələr edirlər. Müzakirə mərhələsində öyrənilənlərin dərindən qavranılması üçün toplanılan məlumatlar bütün sinif tərəfindən müzakirə olunur. Daha sonra mövzu haqqında fikirlər ümumiləşdirilir və nəticə çıxarılır.

Yaradıcı tətbiqetmə mərhələsində əsərdəki Zəhrabəyim ana obrazı götürülür və kublaşdırma üsulu vasitəsilə təhlil edilir.




1. Təsvir et – hansı xüsusiyyətləri özündə daşıyır?
2. Müqayisə et – hansı obrazla fərqli və oxşar cəhətləri var?
3. Assosiasiya yarat – o, sizə hansı obrazı və ya tanıdığınız birini xatırladır?
4. Təhlil et – onu necə səciyyələndirirsiniz?
5. Tətbiq et – sən ondan hansı hallarda istifadə edə bilərsən?
6. Lehinə və ya əleyhinə çıxış et – o, mənfi obrazdır yoxsa müsbət? Fikrinizi əsaslandırın.

Cavablar aşağıdakı kimi qeyd olunur:

1. Nəcib, əxlaqlı, dürüstdür.
2. Səlma ana ilə oxşar, Sona anadan fərqlidir.
3. H.Cavidin “Ana” dramındakı Səlma ananı xatırladır.
4. Vətənsevər, oğlanlarına görə narahatlıq hissi yaşayan obrazdır.
5. Uzaqgörən birinə ehtiyac olduğunda.
6. Yaxşıdır, çünki son nəfəsində də övladlarını birlik olmağa, milli-mənəvi dəyərləri qorumağa səsləyir.

Qiymətləndirmə müəyyən olunmuş meyarlara və səviyyələrə uyğun aparılır. Refleksiya mərhələsində ümumi dərsin gedişatı gözdən keçirilir, əldə olunan

məlumatlar təkrar olunur. Ev tapşırığı olaraq əsərdən hər hansı bir obrazı götürüb başqa bir obrazla Venn diaqramı vasitəsilə müqayisə aparmaq, onların fərqli və oxşar cəhətlərini qeyd etmək tapşırılır.

Dərsin beşinci saatı əsər üzərində tətbiq, müzakirə və yaradıcı işə ayrılmışdır.

**Mövzu:** C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri üzrə tətbiq, müzakirə, yaradıcı iş

**Standartlar:** 3.1.1; 3.1.2; 3.1.3.

**İnteqrasiya:** Azərbaycan dili, həyat bilgisi

**İş üsulları:** müsahibə, tədqiqat

**İş forması:** bütün siniflə iş

**Resurslar:** C.Məmmədquluzadənin əsərləri. Dörd cilddə, elektron vəsait

**Təlim nəticələri:** Essenin, inşanın məzmununa uyğun olaraq müəyyən üslub müəyyənləşdirir, inandırıcı faktlardan istifadə edir; Əldə etdiyi məlumatlara əsaslanaraq əsərin mövzu və ideyasına münasibət bildirir, ümumiləşdirmələr apararaq müəyyən nəticələr çıxarır; Əsərin təhlilini özündə əks etdirəm esse, inşa yazır.

**Dərsin təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması - 5 d.

2. Motivasiya – 3 d.

3. Tədqiqatın aparılması – 10 d.

4. Məlumat mübadiləsi – 10 d.

5. Məlumatın müzakirəsi və təşkili – 5 d.

6. Ümumiləşdirmə və nəticənin çıxarılması – 3 d.

7. Yaradıcı tətbiqetmə - 6 d.

8. Qiymətləndirmə və refleksiya – 3 d.

**Dərsin gedişi**

**Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması:** Əvvəlcə şagirdlər salamlanır. Davamiyyət yoxlanıldıqdan sonra ev tapşırığının hansı səviyyədə yerinə yetirildiyi müəyyənləşdirilir.

**Motivasiya:** Şagirdlər əsərin və obrazların təhlilini xarakterizə edən esse və inşa ilə bağlı biliklərini, məlumatlarını xatırlayırlar. Daha sonra bu məsələ müzakirə olunur. Müzakirə nəticəsində bu cür tədqiqat sualı formalaşır: "Əsərin təhlilini xarakterizə edən esse və inşada diqqət edilməsi vacib olan məsələ nədir?". Fərziyyələr dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması:** İki mövzu qeyd olunur: "Qardaşların bir-birilə oxşar və fərqli cəhətlərinin təhlili" mövzusunda inşa; "Zəhrabəyim ananın ədəbiyyatımızda yaradılmış digər "ana" obrazları ilə müqayisəli təhlili" mövzusunda esse.

**Məlumat mübadiləsi:** Tapşırıqlar ətrafında fikir mübadiləsi aparılır. Şagirdlər əldə etdikləri məlumatları nəzərdən keçirirlər. Sonra bu məlumatlar əsasında qısa şəkildə müsahibə aparılır. Müəllim yönəldici suallar verərək şagirdlərin mövzu ətrafında düşünməsinə səbəb olur. Verilmiş iki mövzu üzrə inşa və esseler yazıldıqdan sonra onların oxusu həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili:** Yazılar oxunduqdan sonra onlara münasibət bildirilir. Mənfi və müsbət cəhətlər müzakirə olunur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** İstiqamətləndirici suallar əsasında ümumiləşdirmə aparılır və belə nəticəyə gəlinir ki, əsərin təhlilini xarakterizə edən inşada məzmun, mövzu, ideya məsələləri, essede isə şagirdlərin özünəməxsus fikirləri, müşahidələri əhəmiyyət kəsb edir.

**Qiymətləndirmə və refleksiya:** Müvafiq qiymətləndirmə meyarları və səviyyələri əsasında formativ qiymətləndirmə aparılır. Müəllim dərslikdə verilmiş ev tapşırığının yerinə yetirilməsini şagirdlərin nəzərinə çatdırır.

# NƏTİCƏ

Milli-mənəvi dəyərlərimizi özündə əks etdirməklə yanaşı, ictimai-siyasi və taleyüklü məsələləri də bərabərində daşıyan dram əsərlərinin orta ümumtəhsil məktəblərində tədris olunması xüsusi əhəmiyyət kəsb edir. İstər folklor ədəbiyyatının, istərsə də yazılı ədəbiyyatın tərkibinə daxil olan dramatik növün nümunələri tədris baxımından şagirdlərdə maraq oyadır.

Orta ümumtəhsil məktəblərində tədrisə cəlb olunan dram əsərlərində ərəb-fars mənşəli sözlərin, izafət tərkiblərinin, tanış olmayan, mənası çətin anlaşılan söz və ifadələrin işlənməsi, dil və üslub baxımından çətinliklərin yaranması mövzuların dərindən qavranılmasına maneə yarada bilər. Son zamanlarda bu kimi çətinliklərin öhdəsindən uğurla gəlmək üçün bir sıra təhsil islahatları aparılır, nümunəvi dərslərin tədrisini həyata keçirmək üçün metodik vəsaitlərdən, kurikulum kitablarından istifadə olunur. Müəllimə köməkçi vasitə rolunu oynayan bu dərs vəsaitləri dərslərin interaktiv metodlardan, iş üsullarından, İKT vasitələrindən istifadə etməklə səmərəli təşkilində əsas rol oynayır. Apardığımız tədqiqat işində "xarakterlər xəritəsi", oxu, müsahibə, müzakirə, diskussiya, Venn diaqramı, ziqzaq, kublaşdırma, sual-cavab kimi iş üsullarından istifadə etməklə orta ümumtəhsil məktəblərində dram əsərlərinin tədrisinin necə həyata keçirilməsinə diqqət yetirmişik. Bu iş üsullarından dərsin mövzusuna, təlimin məqsəd və nəticələrinə uyğun şəkildə istifadə edilir. Eyni zamanda şagirdlərin psixoloji vəziyyəti, yaş və anlaq səviyyəsi də nəzərə alınır. Tədqiqat işimizdə bu təlim texnikalarından istifadə edərək aşağıdakı dram əsərlərinin tədrisini həyata keçirdik:

1. VIII sinifdə tədrisə cəlb olunan Hüseyn Cavidin "Ana" dramı
2. X sinifdə tədris olunan M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünü-məşhur" komediyası
3. XI sinifdə keçirilən C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası

Tədqiqat işimiz giriş, hər biri iki yarımfəsildən ibarət olan iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işimizin giriş

hissəsində tədqiqata cəlb etdiyimiz mövzunun elmi yeniliyi, mövzunun aktuallığı, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələri və s. haqqında məlumat vermişik. Birinci fəslimizdə dramaturgiyanın elmi-nəzəri məsələlərinə toxunmuşuq. I fəslin birinci yarımfəslində şifahi xalq ədəbiyyatına ibtidai dramaturgiyanın əsası kimi nəzər salmışıq. İkinci yarımfəsildə isə dramaturgiyanın yazılı ədəbiyyatdakı nəzəri cəhətlərindən söhbət açmışıq. II fəsildə isə praktik məsələlərə yer verilmişdir. Dram əsərlərinin VIII-X siniflərdə tədrisi bu fəslin birinci yarımfəslini, XI sinifdə tədris olunan dram əsərləri isə ikinci yarımfəslini əhatə etmişdir.

Beləliklə, orta ümumtəhsil məktəblərində dramatik növün tədrisinin yekunu olaraq aşağıdakı nəticələri qeyd edə bilərik:

1. Müəllim təlim standartlarının reallaşdırılmasına düzgün təlim texnologiyalarından, İKT vasitələrindən, iş üsullarından istifadə etməklə nail ola bilər.
2. Dərs müasir təlim standartlarına cavab verməlidir. Şagirdlərin dərslərdə fəal iştirakı təmin olunmalıdır.
3. Əsərin məzmunu, mövzusu, ideyası və obrazlar haqqında verilən məlumatlardan əlavə, şagirdlər yeni məlumatların axtarışına çıxmalı, əvvəl əldə olunan biliklərlə sonradan qazanılan biliklərin müqayisəsini verməyi bacarmalıdırlar. Bunun nəticəsində onlarda idraki, zehni inkişaf, analiz və sintez etmək, şəxsi təəssüratlarını bölüşmək bacarıqları formalaşır.
4. Dramatik növə məxsus əsərlərin orta ümumtəhsil məktəblərində tədris olunması şagirdləri həmin mövzularla tanış etməklə yanaşı, onlarda milli-mənəvi, əxlaqi dəyərləri formalaşdırmağa xidmət edir.
5. Dram əsərlərinin tədrisi zamanı “xarakterlər xəritəsi”, oxu, müsahibə, müzakirə, diskussiya, T sxem, konseptual cədvəl, Venn diaqramı, ziqzaq, kublaşdırma, sual-cavab, klaster, auksion, debat, ikihissəli gündəlik və s. iş üsullarından, metodlardan faydalanmaq olar.

6. Təlim standartlarını və nəticələrini, mövzunun həcmini, şagirdlərin sayını nəzərə alaraq fərdi, cütlərlə, kiçik və böyük qruplarla iş, eyni zamanda kollektiv iş formalarından istifadə edə bilər.
7. Müasir dərsin səmərəli təşkilində iş üsulları, metodlarla yanaşı, əyani vasitələrdən istifadə etmək də vacibdir. Əyani vasitələrə audio-vizual, vizual vasitələr, əsərin məzmununa uyğun şəkillər, filmdən fraqmentlər, sənətkarların portretləri daxildir.
8. Mövzunun tədrisi zamanı əsərin məzmunu, obrazların xarakterik xüsusiyyətləri şagirdlərə dərindən mənimsədilir. Effektiv nəticə əldə etmək üçün bəzən mövzunun həyatla əlaqələndirilməsinə diqqət yetirilir.
9. Görülən işlərin yekununda şagirdlərdə əməkdaşlıq, fikir mübadiləsi aparmaq, müzakirələrə qoşulmaq bacarığı formalaşır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**1.** Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: "Adiloğlu", 2006, 138 s.

**2.** Ağayeva X. Müəllimin pedaqoji ustalığı təlimin səmərəliliyinin şərti kimi. Bakı, 2011, 149 s.

**3.** Ağayeva R. Ümumtəhsil məktəblərində Azərbaycan ədəbiyyatının tədrisində informasiyanın sıxlaşdırılması imkanları və onun həyata keçirilmə yolları. Bakı, 1996, 157 s.

**4.** Aranlı M., Yusifova C. Kurikulum, metodika və məntiq testləri. Bakı: Buta nəşr, 2018, 361 s.

**5.** Aslanov M, Əhmədov C, Babayev A. Orta məktəbdə ədəbiyyatın tədrisi. Bakı, "Maarif "nəşriyyatı, 1966, 291 s.

**6.** Aslanov Y. Ədəbi axtarışlar və tədris. Bakı, "Elm və təhsil", 2013, 400 s.

**7.** Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: ADPU nəşriyyatı, 2011, 162 s.

**8.** Azərbaycan xalq ədəbiyyatından seçmələr (Qaravəllilər, oyunlar və xalq tamaşaları) Bakı, "Şərq-Qərb", 2005, 312 s.

**9.** Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: "Təhsil" jurnalı, 2013, №10, səh.4-16.

**10.** Bağırova T., Süleymanova A. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: Təhsil, 2018, 239 s.

**11.** Bağırova T., Süleymanova A. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün "Ədəbiyyat" fənni üzrə metodik vəsait. Bakı: Təhsil. 2017. 239 s.

**12.** Bentli Erik. Dramın həyatı/Ruscadan tərcümə edən F. Cəlilovadır – Bakı: ADMİU, 2019. 272 s.

**13.** Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq. Bakı: "Yazıçı", 1986, 221 s.

**14.** Ədəbiyyat müntəxəbatı, IX-XI siniflər üçün dərs vəsaitləri, Bakı 2008

**15.** Əhmədov C. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Bakı Universiteti, 1992, 455 s.

**16.** Əhmədov C., Babayev A., Mikayılov Ş. Orta məktəbdə ədəbiyyat tədrisi. II hissə. Bakı: Maarif, 1966, 310 s.

**17.** Əlibəyzadə E. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Qarabağ, 2009, 831 s.

Əliyev R. Şifahi xalq ədəbiyyatının tədrisi məsələləri. Bakı: ADPU, 2013, 357 s.

**18.** Əliyev S. Ədəbiyyat dərslərində yeni texnologiyalar. Bakı, 2009, 199 s.

**19.** Əliyev S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019, 263 s.

**20.** Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı, 2018, 212 s.

**21.** Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə metodik vəsait. Bakı, 2017, 208 s.

**22.** Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik. Bakı: Şərq-Qərb, 2019, 208 s.

**23.** Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə metodik vəsait. Bakı: Şərq-Qərb, 2019, 208 s.

**24.** Əliyeva S. Ədəbiyyat dərslərində əyanilikdən istifadə. Bakı: Maarif, 1967, 80 s.

**25.** Əlizadə Ə, Əlizadə H. Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, ADPU nəşriyyatı, 2008, 479 s.

**26.** Əmircanova Q. Ədəbiyyat dərslərində interaktiv təlim metodlarından istifadə və şagirdlərin biliyinə onun təsiri. Bakı: ADPU, 2010, 23 s.

**27.** Füzuli Bayat. Şamandan səmazənə: oyun və oyunçu, Bakı, Elm və təhsil, 2017, 228 s.

**28.** F.X.Gözəlov, M.K.İmanov, İ.F.Rüstəmzadə, T.T.Orucov, E.H.Abbasov. Qarabağ xalq oyunları və meydan tamaşaları. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 280 s.

**29.** Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası, Bakı 2003

**30.** Hacıyev A. Ədəbiyyat dərslərində əyanilikdən istifadə. Bakı: Maarif, 1993, 120 s.

**31.** Hacıyev A. Ədəbiyyatşünaslığın tarixi və metodologiyası. Mühazirə mətnləri. Bakı: Mütərcim, 2011, 32 s.

**32.** Hacıyev A. Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili, Bakı 2003

**33.** Həmidov H. Azərbaycanda elm və təhsil siyasəti (Qərbə inteqrasiya və modernləşmə). Bakı:Təknur, 2012, 160 s.

**34.** Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2011, 447 s.

**35.** Huizinga, Johan (2015). Homo Ludens Oyunun Toplumsal İşlevi Üzerine Bir Deneme. İstanbul: Ayrıntı Yayınları.

**36.** Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Müəllim üçün vəsait. Bakı: 2009, 200 s.

**37.** Hüseynoğlu S. Ədəbiyyat fənn kurikulumu: tətbiqi və təkmilləşdirilməsi. Azərbaycan dili və ədəbiyyatı tədrisi: elmi-metodik jurnal. 2018, №3(iyun-sentyabr) 3-8 s.

**38.** Hüseynova G. Kurikulum. Bakı Peşəkarlar Akademiyası, 2018, 249 s.

**39.** İbrahimov F., Hüseynzadə R. Pedaqogika. 2 cilddə, 2-ci cild, Bakı: “Mütərcim”, 2012, 706 s.

**40.** İbrahimov X. Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Bakı, 2016, 399 s.

**41.** İbrahimov S., Saraçlı M. Azərbaycanda ədəbiyyatın tədrisi tarixi. Bakı: MBM, 2016, 399 s.

**42.** Kazımov A.S. Ümumi təhsil kurikulumunun əsasları. Dərs vəsaiti. Bakı: 2015, 117 s.

**43.** Kazımov N. Məktəb pedaqogikası. Dərslik (Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri, habelə aspirant və dissertantlar, müəllimlər üçün) Bakı: Çıraq, 2011, 440 s.

**44.** Kərimov Y. Orta ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatının tədrisi problemləri. Bakı: Təbib, 1998, 100 s.

**45.** Kərimov Y. Orta ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatın tədrisi problemləri. Bakı: Təbib, 1998, 100 s.

**46.** Kərimov Y. Pedaqoji tədqiqatın metodları. Bakı, 2009, 280 s.

**47.** Kərimova E. Oxu və ədəbiyyatın tədrisi prosesində varislik və perspektivlik. Bakı, 1997, 177 s.

**48.** Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 1968, 349 s.

**49.** Qaradağlı Ə. Məktəbdə şifahi xalq ədəbiyyatının tədrisi. Bakı: Azərtədrisnəşr, 1961, 97 s.

**50.** Qasımova L., Mahmudova R. Pedaqogika: mühazirə kursu. Bakı: BDU-nun nəşri, 2003, 536 s.

**51.** Qəhrəmanov A. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı: Xəzər Universiteti, 2012, 69 s.

**52.** Məmmədov R. Ədəbiyyat tədrisində şagirdlərin bədii təfəkkürünü inkişaf etdirmək yolları. Bakı: Maarif, 1975, 205 s.

**53.** Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı: Təhsil, 2006, 300 s.

**54.** Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi, Bakı 1992

**55.** Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, 2-ci cild, Bakı: "Bakı universiteti", 2007, 564 s.

**56.** Nailə Əskər. İslam coğrafiyası və Azərbaycanda oyunlar. Bakı, Elm və təhsil, 2017, 160 s.

**57.** Orta məktəbdə ədəbiyyat tədrisi, I,II hissələr, Bakı 1976

**58.** Süleymanova A. Ədəbiyyat dərslərində İKT-dən istifadənin yolları. Bakı: ADPU, 2011, 24 s.

**59.** Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007, 171 s.

**60.** Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Bakı: UNİCEF, 2003.

**61.** Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı: "Print-S", 2015, 29 s.

**62.** Yusifov F. Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə, ali təhsilin bakalavriat təhsil səviyyəsi üçün seçmə fənnin proqramı (050101-Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası), Bakı 2011 14.

**63.** Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, ali təhsilin bakalavriat təhsil səviyyəsi üçün proqram (050101- Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası), Bakı 2011 15.

**64.** Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı, Bakı 2003 ( əlavələr nəzərə alınmaqla)